**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN

**5719.01-Folklorşünaslıq; 5715.01-Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid; 5716.01 –Azərbaycan ədəbiyyatı; 5717.01 – Türk xalqları ədəbiyyatı; 5718.01- Dünya ədəbiyyatı ixtisasından doktorluq imtahanının**

# P R O Q R A M I

**B A K I- 2020**

**Tərtib edənlər:** **M.Q.Allahmanlı**

*filologiya elmləri doktoru, professor*

**Q.U.Umudov**

*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Redaktoru:** **R.Ə.Məmmədov**

*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** **T.S.Cavadov**

*filologiya elmləri doktoru, professor*

**E.H.Quliyev**

*filologiya elmləri doktoru, professor*

# İZAHAT VƏRƏQİ

**5719.01 - Folklorşünaslıq, 5715.01-Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, 5716.01 –Azərbaycan ədəbiyyatı, 5717.01 – Türk xalqları ədəbiyyatı, 5718.01- Dünya ədəbiyyatı** üzrə proqram həmin ixtisas üzrə hazırlığın məqsəd və vəzifələrini, məzmununu və texnologiyasını müəyyənləşdirən rəsmi sənəddir. Proqramda ixtisas üzrə hazırlığın məzmununun qısa təsviri, öyrənilən mövzular, onların ardıcıllığı, mövzuların mənimsənilmə səviyyəsinin yoxlanma üsulları öz əksini tapmışdır.

Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, Azərbaycan ədəbiyyatı, Dünya ədəbiyyatı, Folklorşünaslıq ixtisası üzrə hazırlıq ədəbiyyatının ümumi problemlərini, ayrı-ayrı dövrləri, ədəbi-nəzəri görüşləri, Azərbaycan və xarici ölkə ədəbiyyatında gedən prosesləri, janr səciyyəsini, elmin ümumi nəzəri prinsiplərini, tarixini və onların tədqiqi sahələrini əhatə edir. Bu ixtisaslar üzrə hazırlıq nəticəsində əldə edilən biliklər vasitəsilə təhsilalanlar Azərbaycan və xarici ölkə ədəbiyyatının ümumi və nəzəri məsələləri ilə bağlı elmi biliklər, nəzəri məlumatlar əldə edir.

Hazırda ölkəmizdə səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil sistemin yaradılması istiqamətində ciddi və həm də məqsədyönlü işlər görülməkdə davam edir. Ümumi təhsil sahəsində aparılan islahatlar, məzmun dəyişiklikləri, dünyaya inteqrasiya təlim-tərbiyə, təhsil prosesinin sistemli planlaşdırılmasını özündə əks etdirən kurikulum islahatı adı ilə həyata keçirilir.

Azərbaycan Hökuməti tərəfindən 30 oktyabr 2006-cı ildə təsdiq olunmuş Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədinin və onun tələblərinə uyğun hazırlanmış fənn kurikulumlarının əsasını nəticəyönümlük, tələbyönümlük, şəxsiyyətyönümlük, təfəkküryönümlük prinsipləri təşkil edir.

Digər elm sahələri ilə yanaşı, ədəbiyyatın əsasında dünya və Azərbaycan ədəbi-mədəni mühitində gedən prosesləri mənimsəmək, ədəbi-mədəni mühiti, tarixi-estetik düşüncəni və çağdaş mərhələnin ümumi məsələlərini bir bütöv olaraq dərk etmək, etnomilli və dünyəvi müstəvidə olanları təhlilə gətirə bilmək bacarığının formalaşdırılması dayanır.

Ədəbi-mədəni proses, eləcə də pedaqoji mühit təlim, tərbiyə, təhsil müstəvisində bunların kompleks yerinə yetirilməsini bir məqsəd olaraq qarşıya qoyur. Onların mükəmməl konsepsiyasını yaratmaq və nizamlamaq istiqamətində fəaliyyətini planlaşdırır.

Hazırda sadalanan keyfiyyətlərə malik tədqiqatçıların yetişdirilməsi sahəsində dövlət və hökumət səviyyəsində mühüm tədbirlər həyata keçirilir.

Universitetlərdə ədəbiyyatın ayrı-ayrı ixtisası üzrə (Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, Azərbaycan ədəbiyyatı, Dünya ədəbiyyatı, Folklorşünaslıq ixtisası üzrə) magistr pilləsində təhsil almaq istəyən tələbələrin sayı günbəgün artır. Fəlsəfə doktou olmaq üçün elmə həvəs göstərənləri də buraya əlavə etdikdə məsələnin mahiyyəti daha da böyüyür. Bütün bunlar müasir təhsilin tələbləri səviyyəsində fəlsəfə doktoru üçün yeni proqramın yaradılmasını zəruri edir.

İxtisası üzrə hazırlığın proqramda aşağıdakı məqsəd və vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur.

**Məqsəd:**

- Ədəbiyyatşünaslığın ümumi problemlərini, incəsənətin mənşəyi, dünya ədəbi nəzəri fikrində mövcud nəzəriyyələrin məsələyə yanaşmalarını, sənətin, ədəbiyyatın mənşəyi məsələlərini aydnlaşdırmaq;
- Azərbaycan ədəbiyyatı tarixinin dövrləşməsini, onu şərtləndirən amilləri, konseptual baxışları sistemli olaraq saf-çürük etmək, daha uğurlu və münasib olanı tipoloji müstəvidə təhlil edib dolğun təsəvvür formalaşdırmaq;
- Ərəbdilli, farsdilli Azərbaycan ədəbiyyatının məzmun və mahiyyətini aydınlaşdırmaq, özgə dildə yazmanı zəruri edən səbəbləri müəyyənləşdirib problemin genetikasını aşkarlamaq; dünya xalqlarında bu tip problemlərin ümumi məzmununu açıqlamaq;
- Klassik ədəbiyyatın zəngin janr səciyyəsini elmi-nəzəri müstəvidə təhlil faktına çevirmək, Azərbaycan və dünya ədəbiyyatında növ və janr məsələlərinin ümumi nəzərimahiyyətini aydınlaşdırmaq, milli ədəbiyyat müstəvisində olanları tipoloji təhlilə gətirə bilmək;
- Ərəb və farsdilli Azərbaycan ədəbiyyatının tədqiqi məsələlərini aydınlaşdırmaq; təzkirə, cüng, bəyazlarda olan ilkin nümunələri və sonrakı dövrlərin bədii mətnlərini müqayisəli ədəbiyyatşünaslıq baxımından təhlil etmək, çağdaş mərhələdə ədəbi-nəzəri fikrin qənaətlərini ümumiləşdirmək;
- Anadilli ədəbiyyatın inkişaf tarixini, janr və məzmun səciyyəsini ilkin nümunələrdən günümüzə qədərki dinamik mənzərə baxımından təhlil etmək, klassik ənənə və xalq şeiri üslubunda olanlar müstəvisində ayrı-ayrı dövrlər və konkret zaman sərhədlərində sistemli araşdırma faktına çevirmək;
- Klassik ədəbiyyat haqqında elmi-nəzəri mülahizələri ilkin nümunələrdən günümüzə qədrki olanlar səviyyəsində araşdırma faktına çevirmək, aparılan təhlillərin mahiyyətində olanları ayrı-ayrı zaman hüdudlarında deyilənlər kontekstində ümumiləşdirmək;
- Yazılı ədəbiyyatda növ və janr problemini, dünya ədəbiyyatı və milli ədəbiyyat müstəvisində janrlararası əlaqəni, tarixi dinamikanı, işləklik formullarını, mətn sxemlərini bir bütöv olaraq aydınlaşdırmaq, mövcud mülahizələrin ümumiləşdirməsini aparmaq, üslub və janr özünəməxsusluqlarının mahiyyətini nəzəri müstəvidə təhlilə gətirmək;
- Şərq və türk xalqları, eləcə də Avropa xalqları ədəbiyyatı müstəvisində elmi məktəb və cərəyanların, ədəbi axınların ədəbi prosesə verdiyi töhfələri, onları zəruri edən səbəbləri tipoloji baxımdan təhlilə gətirmək; klassisizm, sentimentalizm, romantizm, realizm, psixologizm, modernizm, postmodernizm və s. axın və cərəyanların mühiyyətində olanları aydınlaşdırmaq;
- Mətn poetikasını, ayrı-ayrı janrların formullar sistemini, janrlar arası bağlantıları, onların özünəməxsusluq sistemini bir bütöv olaraq aydınlaşdırmaq, Şərq və Qərb kontekstində mövcud yanaşmaların ümumi mahiyyətini açıqlamaq;
- Yazıçı və folklor problemini dünya ədəbiyyatı müstəvisində təhlilə gətirmək, dünya ədəbiyyatının korifeylərinin zəngin xalq ədəbiyyatından mənimsəmə bacarıq və imkanlarını, onlardan istifadənin üsul və yollarını aydınlaşdırmaq, milli ədəbiyyatda bu problemin işlənmə vəziyyəti haqqında dolğun təsəvvür yaratmaq və s.

**Vəzifələr:**

- Folklor, milli ədəbiyyat, Şərq xalqları ədəbiyyatı, türk xaqları ədəbiyyatı, Avropa ədəbiyyatı və s. ədəbiyyatlar kontekstində olanları ümumiləşdirmələrlə təhlilə gətirmək, ədəbiyyatşünaslığın ümumi problemləri müstəvisində təhlil bacarığı aşılamaq;
- Milli ədəbiyyat baxımından Azərbaycan ədəbiyyatı tarixinin dövrləşməsini, onu şərtləndirən amilləri, konseptual baxışları sistemli olaraq saf-çürük etmək bacarığı

formalaşdırmaq;

- Ərəbdilli, farsdilli Azərbaycan ədəbiyyatının məzmun və mahiyyətini özgə dildə yazmaq kontekstində aydınlaşdırmaq, islam mədəniyyəti müstəvisində məsələnin mahiyyətini təhlil etmək;
- Klassik ədəbiyyatın spesifikasını, onin inkişaf və özünəməxsusluq sistemini bir bütöv olaraq mənimsəmək, ayrı-ayrı zaman kəsiklərindəki mənzərəsini, sənətkar özünəməxsusluqlarını Şərq və türk xaqları ədəbiyyatı anlamında aydınlaşdırmaq;
- Ərəb və farsdilli Azərbaycan ədəbiyyatının tədqiqi ənənəsində müasir ədəbiyyatşünaslığın fikir və mülahizələrini bir bütöv olaraq təhlil faktına çevirmək;
- Anadilli ədəbiyyatın ilkin nümunələrini və sonrakı mərhələdəki boy artımını, prosesin ümumi inkişaf tendensiyasını ayrı-ayrı əsrlərdə olanlar müstəvisində təhlil etmək;
- Dünya ədəbi-nəzəri fikrinin konseptual yanaşmaları baxımından sənətin mənşəyi, tarixi inkişaf səciyyəsi, məktəb və mühit təsəvvürlərini aydınlaşdırmaq;
- Ədəbi axın və ədəbi cərəyanların Şərq və türk xalqları, eləcə də Avropa xaqları timsalında mahiyyətinə və tendensiyasına aydınlıq gətirmək və onu zəruri edən məsələləri ortaya qoymaq;
- Şərq və türk xalqları, eləcə də Avropa xalqları ədəbiyyatı müstəvisində elmi məktəb və cərəyanların, ədəbi axınların ədəbi prosesə verdiyi töhfələri, onları zəruri edən səbəbləri tipoloji baxımdan faktlaşdırmaq;
- Dünya ədəbi-mədəni mühitində baş verənləri tipoloji kontekstdə təhlil etmək, metod, üslub və özünəməxsusluq müstəvisində sistemli təhlillərə üstünlük vermək;
- Folklorda mövcud məktəb və cərəyanları, sənətin mənşəyi ilə bağlı mühakimələri, toplanma, nəşr və tədqiq problemlərini , yazılı ədəbiyyatda xalq təfəkküründə olanlardan yararlanmanın ümumi prinsiplərini aydınlaşdırmaq və s.

**Ümumi kompetensiyalar:**

- Müasir elmi nailiyyətləri dəyərləndirmək və tənqidi analiz, praktiki və tədqiqat məsələlərinin həm də fənlərarası sahələrdə həlli zamanı yeni ideyaları ümumiləşdirmək qabiliyyəti;
- Elmi və elm-təhsil məsələlərinin həlli üzrə milli və beynəlxalq tədqiqat kollektivlərinin işində iştirak etməyə hazır olmaq;
- Elm, təhsil mühitinin xüsusiyyətlərini nəzərə almaqla, tədris və tədqiqat prosesini planlaşdırmaq, həyata keçirmək və dəyərləndirmək;

**Ümumpeçə kompetensiyaları:**

- Elm və ümumtəhsil proqramı üzrə öyrənənin planlaşdırılmış səviyyədə şəxsiyyətyönümlü və professional inkişafının təmin edilməsi məqsədilə müasir təlim texnologiyalarını, üsul və vasitələrini əsaslı seçmək və onlardan səmərəli istifadə etmək;
- Qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, təhsil fənlərinin kompleks metodiki təminatını işləyib hazırlamaq

**Peşə kompetensiyaları:**

- Elmi və pedaqoji tədqiqat üsullarına və metodologiyasına yiyələnmək;
- Elmi araşdırmalarda, peşə fəaliyyətində etnok normalara riayət etmək, özünəməxsus peşə və şəxsiyyətyönümlü inkişaf məsələlərini müəyyənləşdirmək və həll etmək;
- Elmi-nəzəri və pedaqoji elmlər sahəsində, həmçinin informasiya və kommunikasiya texnologiyalarından da istifadə etməklə elmi tədqiqat nailiyyətinə yiyələnmək;
- Ekspert dəyərləndirməsi vasitəsilə elmi nəticələri analiz etmək;
- Ali təhsilin əsas proqramları üzrə pedaqoji fəaliyyətə hazırlıq;
- Elmi-nəzəri nəticələrin nəzəri və praktik baxımından əhəmiyyətliliyini müəyyənləşdirmək və s.

**Kursun öyrənilməsi nəticəsində doktorant:**

**Bilməlidir:**

-ümumi təhsilin dövlət standartlarının tələblərinin "Ədəbiyyat" kontekstində bütün təhsil pillələri üçün tələblərini;

- ədəbi-nəzəri düşüncənin ədəbiyyat üzrə məzmun, məqsəd və vəzifələrini;
- ədəbiyyatdan məktəb dərsliklərinin və tədris proqramlarının məzmun, struktur və metodiki təminatını;
- ədəbiyyatın tədqiqat prinsiplərini, metod və üsullarını (yanaşmalarını);
- ədəbiyyatın tədqiqinin ümumi prinsiplərini;
- ədəbiyyatın tədqiqi məsələlərini və onun nəzəri konsepsiyasını;
- elmi-nəzəri təhlillərin ümumi məzmun xətlərini və onun metodik sistemini;
- mətn tiplərini, nəzəri konsepsiyaları, tipoloji yanaşmaları;
- təhlilin prinsip və növlərini, yanaşma metodologiyasını;
- ədəbiyyatın ümumi elmi-nəzəri əsaslarını, məzmun, struktur və quruluş prinsiplərini;
- yanaşmalarda problemin təhlili baxımından üsul və metodların seçilməsini, qanunauyğunluqlarını və s.

**Bacarmalıdır:**

- elmi-nəzəri araşdırmaların planlaşdırmağı;
- ədəbiyyatdan bədii mətnləri və nəzəri problemləri ümumiləşdirməyi;
- mövcud nəzəri yanaşmalarla mahiyyəti aydınlaşdırmağı;
- problemin tədqiqi üçün uğurlu yanaşmanı müəyyənləşdirməyi;
- tipoloji təhlil baxımından mətnə (problemə) münasibət sərgiləməyi;
- bədii mətnin növ və janrından aslı olmayaraq onun poetik sistemini aydınlaşdırmağı və s.

Təqdim olunan proqramda Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, Azərbaycan ədəbiyyatı, Dünya ədəbiyyatı, Folklorşünaslıq ixtisası üzrə bütün məsələlər , eyni zamanda müasir elmin yeni yanaşmaları, üsul və metodları öz əksini tapmışdır.

**Proqramın məzmunu 5719.01- Folklorşünaslıq, 5715.01-Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, 5716.01 –Azərbaycan ədəbiyyatı, 5717.01 – Türk xalqları ədəbiyyatı, 5718.01- Dünya ədəbiyyatı ixtisasına uyğundur**.

# FOLKLORŞÜNASLIQ

## *(minimum imtahanı üçün)*

## P R O Q R A M

**1. Xalq ədəbiyyatı haqda ümumi məlumat.** Xalq ədəbiyyatı haqqında ümumi məlumat. ədəbiyyatının ehtiva etdiyi məzmun. Türk xalqlarında, eləcə də dünya mədəniyyət sistemində xalq ədəbiyyatı ilə bağlı fikir və mülahizələr. Xalqın mədəni-etnik inkişafını, adət-ənənəsini, tarixinin ayrı-ayrı mərhələlərindəki prosesi və s. öyrənmək üçün mənbə funksiyası. Folklor araşdırıcılarının xalq ədəbiyyatının öyrənilməsi sahəsindəki gördüyü işlər. Təhlillər, monoqrafik araşdırmalar.

**2. Sənətdə mənşə problemi. Xalq ədəbiyyatının təşəkkülü.** Dünya ədəbi-nəzəri fikrinin görkəmli nümayəndələri, folklorşünaslar, etnoqraflar, musiqişünaslar, dilçilər sənətin mənşəyi ilə bağlı müxtəlif səpkili mülahizələr yürütmüşlər. Yunan filosoflarının, Roma ədəbiyyatının görkəmli nümayəndələrinin, eləcə də Avropa elmi-nəzəri fikrinin bu sahədə ciddi mülahizələri bir tərəf kimi sənətin mənşəyinin müəyyənləşməsinə yönəlmişdir. Fales, Platon, Demokrit, Sokrat, Aristotel. Aristotelin "Poetika", "Etika", "Ritorika" əsərləri. Horatsinin "Pizonlara məktub", "Poeziya sənəti" əsəri. Azərbaycan ədəbi-nəzəri fikrinin mülahizələri və s. Klassik və müasir elmi-nəzəri fikirdə sənətin mənşəyi ilə bağlı fikir və mülahizələr. Sənətin mənşəyində əməyin rolu. İncəsənətin ilk rüşeymlərinin mövcudluğu. Dərk və idrak, görmə və eşitmə, təqlid. Qayaüstü təsvirlər. İncəsənətin çıxış nöqtəsi – mifologiya.

**3.Folklorşünaslığın tarixi. Nəzəriyyələr.** Folklorşünaslığın bir elm kimi formalaşması. Başqa elmlərlə əlaqəsi. Avropada meydana gələn nəzəriyyələr. Mifoloji məktəb (əsatirçilər), İqtibas nəzəriyyəsi, Tarixi məktəb, Antropoloji nəzəriyyə, Fin məktəbi və s. Nəzəriyyələrin meydana gəlməsini şərtləndirən amillər. Yakov və Vilhelm Qrim qardaşlarının folkolşünaslıqda yeri.

**4. XIX əsr Azərbaycan folklorşünaslığı.** Xalq ədəbiyyatının toplanmasına aid ilk nümunələr. XIX əsr Azərbaycan folklorşünaslığı. M.Kazımbəy, M.Mahmudbəyov, M.F.Axundov, E.Sultanov, T.Bayraməlibəyovun folklorşünaslıq fəaliyyəti. XIX əsr rus mətbuatında çap olunan Azərbaycan folklor nümunələri. "Тифлисские ведемости», «Кавказ», «Кавказский вестник», «Новое обозрение», СМОМПК və s. qəzet və jurnalların xalq ədəbiyyatının nəşri və öyrənilməsində rolu. "Əkinçi" qəzeti və Azərbaycan folkloru.

**5. XX əsr Azərbaycan folklorşünaslığı.** XX əsr Azərbaycan folklorşünaslığının tarixində yeni mərhələ kimi. S.Mümtaz, V.Xuluflu, H.Zeynallı, Y.V.Çəmənzəminli, Ə.Abidin, H.Əlizadə, F.Köçərli, Ü.Hacıbəyov, N.Nərimanov, R.Əfəndiyev, A.Şaiq və başqalarının folklorşünaslıq fəaliyyəti. Azərbaycanı tədqiq və tətəbbö cəmiyyətinin yaranması. XX əsr Azərbaycan mətbuatının folklorşünaslığın formalaşmasında rolu. İlkin nəşrlər. Dastanların, nağılların ayrı-yarı cildlərinin nəşri. Akademik nəşrlərin yaranması.

M.H.Təhmasibin, H.Araslının, Ə.Axundovun, P.Əfəndiyevin, V.Vəliyevin, İ.Abbasovun, M.Həkimovun, R.Rüstəmzadənin, S.Paşayevin və s. folklorşünaslıq fəaliyyəti.Yazıçı və folklor. Nizami və xalq ədəbiyyatı.

**6. Mərasimlər. Mövsüm və məişət mərasimləri.** Mövsüm və məişət mərasimləri haqqında ümumi məlumat. Onların məzmun xsusiyyətləri. Mövsüm mərasimlərinin öyrənilməsi tarixi. Mövsüm mərasimləri ilə bağlı azərbaycan folklorşünaslarının qənaətləri. Bahar mərasimi. Bahar mərasimində əski rituallar. Qədim insanların mərasim görüşləri. Mərasim nəğmələrində inanış və etiqad motivləri.

Məişət mərasimləri. Məişət mərasimi ilə bağlı yaranan nəğmələr. Sənətin mənşəyində və təşəkkülündə mərasimlərin rolu. Məişət mərasimlərinin xarakteristikası. Xalqların məişət zənginliyinin ifadəliliyində nəğmələrin rolu. Toy və yas mərasimləri. Ritualların zənginliyi və mahiyyətində işarələnən məzmun. Azərbaycanda məişət mərasimləri ilə bağlı yaranan nəğmələr. onların toplanması və nəşri problemi. Region folklorunda məişət mərasimlərinin toplanması vəziyyəti. Toy nəğmələri, onların poetik strukturu. Mətn sxemləri.

**7.Mif və mifologiya.** Mif nədir? Mif haqqında ümumi məlumat. Dünya folklorşünaslığının miflərlə bağlı qənaət və mülahizələri. Miflərin qruplaşdırılması. Azərbaycanda miflərin toplanması, nəşri və tədqiqi. “Avesta”da mifik görüşlər. Oğuzla bağlı miflər. Dünyanın yaranması haqqında miflər. Kosmoqonik miflər. İlk insan haqqında miflər. Totemlə bağlı miflər. Antropoloji miflərin səciyyəsi. Azərbaycan folklorunda mifoloji obraz və süjetlər. Çağdaş mərhələdə mifologiyanın tədqiq problemləri.

**8. Xalq ədəbiyyatının janrları. Əmək nəğmələri. Xalq poeziyası.** Xalq ədəbiyyatında növ və janr anlayışı. Epik, lirik və dramatik növ. Lirik növün janrları. Əmək nəğmələri. Əmək nəğmələrinin janr, məzmun, üslub xüsusiyyətləri. Əmək nəğmələrinin toplanması, nəşri və tədqiqi problemi. Azərbaycan folklorşünaslarının təhlillərində əmək nəğmələri. Toplama materiallarında əmək nəğmələrinin bölgü səciyyəsi. Əmək nəğmələrinin tədqiqi tarixi və və çağdaş vəziyyəti.

Xalq poeziyasının ideya-mövzu istiqamətləri. İpəkçiliklə bağlı yaranan nəğmələr və onların səciyyəsi. Toxuculuqla əlaqədar yaranan nəğmələrin ideya-mövzu istiqamətləri. Balıqçılıq və ovçuluqla bağlı yaranan nəğmələr. Nəğmələrin qədim insanların məşğuliyyətini, həyat tərzini ifadə etmək imkanları. Xalq poeziyası (ipəkçilik, toxuculuq, balıqçılıq və s.) öyrənilməsi tarixi və onların məzmun xüsusiyyətləri.

**9. Holavarlar, sayaçı nəğmələri.** Əkinçiliyin meydana gəlməsi. Qədim insanların həyat şəraitinin nizamında əkinçiliyin funksional səciyyəsi. Bədii dünücəsinin formalaşmasında əməyin rolu. Holavarlar onların səciyyəvi xüsusiyyətlər. Əkinçiliklə bağlı yaranan nəğmələrin tədqiqi. Holavar sözünün ifadə etdiyi məzmun. Azərbaycan folklorşünaslığında holavarlarla bağlı fikir və mülahizələr. F.Köçərlinin, M.Arifin, Ə.Axundovun, P.Əfəndiyevin, M.Həkimovun və başqalarının holavarlar haqqında qənaətləri. Sayaçı nəğmələrinin səciyəvi xüsusiyyətləri. Etnoqrafların, arxeoloqların, folklorşünasların bu istiqamətdə mülahizələri. Sayaçı nəğmələrinin poetik sistemi.

**10. Bayatı xalq poeziyasında mükəmməl nümunə kimi.** Türk xalqlarında bayatı şeir forması kimi. Bayatıların janr səciyyəsi. Xalq poeziyasının mükəmməl forması- bayatı.

Bayatıların strukturu. Toplanması və nəşri. Mövzu rəngarəngliyi.Etnosun tarixi gerçəkliklərini ifadə etmək imkanları. İctimai məzmunlu bayatılar. Tədqiqi problemləri. Ayrı-ayrı antologiyalarda bayatı nümunələri. Variantlılıq xarakteri.Ə.Abidin, C.Əfəndizadənin, B.Behcətin, S.Mümtazın, M.H.Təhmasibin, Ə.Axundovun, P.Əfəndiyevin, M.Həkimovun, S.Paşayevin bayatı ilə bağlı mülahizələri

**11. Epik növ. Epik növün janrları.** Əfsanə, rəvayət, nağıl, tapmaca, atalar sözü və məsəllər, onların səciyyəvi xüsusiyyəıtləri. Janr sistemi. Struktur səciyyəsi. Əfsunların forma xüsusiyyətlərində işarələnən məzmun. Onların toplanması, nəşri və tədqiqi tarixi. Əfsun – söz vasitəsilə sehr. Söz düzümü və onların yerinə yetirdiyi funksiya.Təsərrüfat həyatı ilə bağlı əfsunlar. Tapmaca xalq ədəbiyyatının ən geniş yayılmış formalarından biri kimi. Tapmacaların janr səciyyəsi və metaforik xarakteri. Əfsanə və rəvayətlərin oxşar və fərqli xüsusiyyətləri. Nağıllar. Nağılların qruplaşdırılması. Sehrli nağıllar. Heyvanlar haqında nağılar, məişət nağılları, tarixi nağıllar. Uşaq nağılları. Nağıllarda sehrli obrazlar. Uşaq folkloru. Epik növün janrlarının öyrənilməsi vəziyyəti. Sənətkarlıq xüsusiyyətləri.

**12.Dramatik növ.** Dramatik növ haqqında ümumi məlumat. Xalq dramlarının səciyyəsi. Meydan tamaşaları. Mərasimlə əlaqədar dramlar. “Kosa-kosa”, “Tənbəl qardaş”, “Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş”. İctimai məzmunlu dramlar. “Keçəl”, “Xan-xan” Ailə-məişət dramları. “Aşna”, “Tapdıq çoban”, “Bic nökər”, “Maraloyunu” və s. Xalq dramlarının məzmun xüsusiyyətləri.

**13. Dastanlar. Qəhrəmanlıq dastanları.** Dastan haqqında ümumi məlumat. Dastanın mətn strukturu. Yaranma yolları. Mövzu xüsusiyyətləri. Formullar sistemi. Nəzmlə nəsrin növbələşməsi. Oğuznamələr. Qəhrəmanlıq dastanları. Türk dastançılıq ənənəsi. Uyğur dastanları “Törəyiş”, “Köç”. Onların spesifikası. Göytürk dastanları (“Bozqurd”, “Ərqənəkon”). Məzmun xüsusiyyətləri. “Kitabi-Dədə Qorqud” dastanları haqqında ümumi məlumat. Dastanın quruluşu. Boyların ümumi səciyyəsi. “Kitabi-Dədə Qorqud”da ozan obrazı. Dastanın variantları (Vatikan və Drezden variantı). “Kitabi-Dədə Qorqud”un nəşri tarixi. Azərbaycanda nəşrləri. Dastanda obrazların səciyyəsi. Qadın obrazları.

“Koroğlu” dastanı. Dastanın versiya və variantları. Azərbaycan koroğluşünaslığı. Dastanın nəşrləri. Koroğluşünaslığın formalaşma tarixi. Avropada dastanın nəşrləri. Şopen, A.Xodzko, Penni, J.Sand və başqalarının dastanla bağlı fikir və mülahizələri. “Koroğlu”nun Azərbaycanda nəşrləri. V.Xuluflu, H.Əlizadə, M.H.Təhmasibin nəşrləri. Son dövr Azərbaycan koroğluşünaslığı. Dastanın qolları. Qolların məzmun və ideya xüsusiyyətləri. Obrazların səciyyəsi. Qəhrəman odrazı.

“Qçaq Nəbi”, “Qaçaq Kərəm”, “Qandal Nağı”, “Qara Tanrıverdi”, “Qaçaq Yusif”, “Səməd bəy”, “Qaçaq İsaxan”, “Qaçaq İsmayıl və s. Qaçaq dastanlarının yaranmasını şərtləndirən amillər. Qaçaq hərəkatı. Azərbaycan xalqının tarixində qaçaq hərəkatı xüsusi mərhələ kimi. Dastan ənənəsi və qaçaq dastanları. Qaçaq dastanları aşıq yaradıcılığının mühüm hissəsi kimi. Qaçaq dastanlarının struktur xüsusiyyətləri. Dastan poetikasında qaçaq dastanlarının özəllikləri. Qaçaq dastanlarında aşıq obrazı. Qadın obrazları. “Qaçaq Süleyman” dastanı. Qaçaq dastanlarının toplanması və nəşri. Qaçaq dastanını tədqiq problemləri. Folklorşünas alimlərin qaçaq dastanları ilə bağlı fikir və mülahizələri. Dastan

qəhrəmanlarını tipologiyası. Qaçaq dastanlarının hadisə, əhvalat, rəvayət xarakteri. Qaçaq dastanlarında tarixilik və bədiilik.

**14. Məhəbbət dastanları.** Dastanların qruplaşdırılması. Məhəbbət dastanlarının yaranması yolları. Janr xüsusiyyətləri. Toplanması nəşri və tədqiqi. Məhəbbət dastanlarında tarixilik. Büta məsələsi. Məhəbbət dastanlarını nəşri və öyrənilməsi tarixi. “Yetim Aydın”, “Qurbani”, “Abbas və Gülgəz”, “Əsli və Kərəm”, “Aşıq Qərib”, “Nəcəf və Pərizad”, “Sarı Aşıq və Yaxşı”, “Novruz və qəndab”, “Lətif şah”, “Seydi və Pəri”, “Tahir Və Zöhrə”, “Xəstə Qasım və Mələksima”, “Seyfəlimülük”, “Abdulla və Cahan”, “Arzu və Qənbər”, “Valeh və Zərnigar” və s dastanların məzmunu. Mövzu və ideya xüsusiyyətləri. Dastanlarda əski inam və etiqadlar, mifoloji təsəvvürlər. Məhəbbət dastanlarının strukturu. Ustadnamə və onların poetik sistemi. Ustadnamələrin dastan strukturunda yeri. Məhəbbət dastanlarında dastan formulları. Duvaqqapma. Dastan poetikası. Dastan sonluğu. Başlanğıc və sonluq formulları. Dastan qəhrəmanları. Dastanlarda motivləşmə.

**“Tahir və Zöhrə”, “Əmrah” dastanları.** “Tahir və Zöhrə” türk və Qafqaz xalqları arasında geniş yayılmış dastan nümunəsidir. Dastanın Azərbaycan variantının spesifik xüsusiyyətləri. “Tahir və Zöhrə” dastanının qaynaqları. Dastanın tədqiq problemləri. Janr məzmunu. Azərbaycanda “Tahir və Zöhrə dastanının nəşrləri. Öyrənilmə vəziyyəti. Dastanın obrazlar sistemi. Hadisələrin coğrafiyası. Dastan strukturu. Formul rəngarəngliyi. Başlanğıc və sonluq formulları. Mifik elementlərin dastanda qorunuşu və ifadəsi. Dastan ənənəsində “Tahir və Zöhrə”nin yeri. Nəsr və nəzm növbələşməsi. Son dövr aşıq repertuarında bu dastanın yeri. “Əmrah” dastanının mövzu xüsusiyyətləri. Dastanın məzmunu. Poetik sistemi. Obrazların səciyyəsi. Əmrahla bağlı folklorşünaslıqda fikir və mülahizələr. Tarixi şəxsiyyət kimi fəaliyyəti. Bədii yaradıcılığı. Azərbaycanda bu dastanın variantları. Nəşri və tədqiqi problemləri.

**“Əsli və Kərəm”, “Aşıq Qərib” dastanı.** “Əsli və Kərəm” dastanının nəşrləri. Dastanın tədqiq tarixi. “Əsli və Kərəm” dastanının tolanma və tədqiq vəziyyəti. Dastan ənənəsində “Aşıq Qərib” və “Əsli- Kərəm” dastanlarının yeri. “Əsli və Kərəm”in strukturu. Dastan qəhrəmanları. Kərəm, Əsli, Ziyad xan, Sofi, Keşiş və s. obrazların təhlili. Əslinin getdiyi yerlərin coğrafiyası (səfər xəritəsi). “Əsli və Kərəm”də büta verilməməsinin səbəbləri. Milli və dini münasibətlərin görünüşü. Lələ obrazı və onun semantik məzmunu. “Aşıq Qərib” dastanının əsas ideyası. Qəribliyin ifadəsi. “Aşıq Qərib”də buta motivi. Qəribliyin digər dastanlarda ifadəsi. Dünya dastan ənənəsində qəriblik. “Aşıq Qərib” dastanında obrazların səciyyəsi. Dastanın poetik strukturu. “Kitabi-Dədə Qorqud” dastanındakı qəriblik motivi ilə “Aşıq Qərib”də qəriblik motivinin müqayisəsi. Dastan formulları.

**“Qurbani”, “Abbas və Gülgəz” dastanları.** Aşıq dastan yarapdıcılığı. “Qurbani” “Abbas və Gülgəz” dastanları. Aşıq dastan yaradıcılığının xüsusiyyətləri. Ustad sənətkarlarla bağlı yaranan dastanların yaranma yolları. Folklorşünaslıqda bu tip dastanlarla bağlı fikir və mülahizələr. “Qurbani” dastanının Diri versiyası. “Qurbani” dastanının variantları. Dirili Qurbaninin həyat və yaradıcılığının dastanda əksi vəziyyəti. Qurbani aşıq yaradıcılığının görkəmli nümayəndəsi kimi. Qurbani şeirlərinin toplanması, nəşri və tədqiqi. Qurbaninin həyat və yaradıcılığı ilə bağlı mülahizələr. Dastanda övladsızlıq məsələsi.

Obrazların səciyyəsi. Büta məsələsinin dastanda qoyuluşu. Haqq aşığı funksiyası və onun dastanda statusu. Dastanın nəşri, strukturu, məzmunu.

"Abbas və Gülgəz" dastanının nəşrləri. Aşıq Abbas Tufarqanlının həyatının dastanda ifadəsi. Dastanın məzmunu. Azərbaycan dastan ənənəsində yeri. Dastan müqəddiməsi, ustadnamələrin məzmunu. Obrazların səciyyəsi. Tarixiliyin görünüşü. Dastan formulları. Başlanğıc və sonluq formulları. Öyrənilmə və tədqiq vəziyyəti. Dastanda aşıq obrazı. Abbas, Gülgəz Pəri, Dəli Becan, Şah Abbas və s. obrazların təhlili.

**"Arzu və Qənbər", "Yaxşı və Yaman" dastanı.** "Arzu və Qənbər" dastanının variantları. Türk xalqları arasında "Arzi və Qənbər" dastanı. Dastanın özünəməxsusluğu. Toplanma, nəşr və tədqiqi məsələləri. "Arzu və Qənbər" dastanının məzmunu. Bayatı əsasında yaranmış dastanlar. "Arzu və Qənbər" dastanının Azərbaycan variantları. Öyrənilmə vəziyyəti. Dastanın türkmən variantı. Obrazların səciyyəsi. Poetik strukturu. Məzmun xüsusiyyətləri.

**"Yaxşı və Yaman" dastanı.** Sarı Aşığın həyatının dastanda əksi səviyyəsi. Sarı Aşıq Dastanın əsas qəhrəmanı kimi. Bayatı əsasında yaranmış dastanlar sırasında "Yaxşı və Yaman"ın yeri. Dastanın rəvayət və əfsanə xarakteri. Obrazların səciyyəsi. Janr xüsusiyyətləri. Dastan strukturunun spesifikası. "Yaxşı və Yaman" dastanının toplanması, nəşri və tədqiqi məsələləri

**"Xəstə Qasım və Mələksima", "Valeh və Zərnigar" dastanları.** XVIII əsr aşıq yaradıcılığının görkəmli nümayəndələri ilə bağlı dastanlar. Xəstə Qasım dastan qəhrəmanı kimi. Xəstə Qasımla bağlı dastanını yaranması. Aşıq dastan yaradıcılığında "Xəstə Qasım və Mələksima" dastanınnı yeri. Ustad sənətkarın həyat və yaradıcılığının dastanda ifadə səviyyəsi. Dastanın poetik strukturu. Xəstə Qasım və Mələksima"nın məzmunu. Dastanda obrazların səciyyəsi. Xəstə Qasım dastan qəhrəmanı kimi. Dastanın nəşri və tədqiqi tarixi. Dastan söyləyiciləri. Aşıq repertuarında "Xəstə Qasım və Mələksima" dastanının yeri. Dastanda sənətkar obrazı.

Abdalgülablı Aşıq Valehin həyatı ilə bağlı yaranan dastan. XVIII əsr Qarabağ ədəbi mühiti. Mühitin dastanda ifadəsi. Zərnigar obrazının aşıq kimi təhlili. Zərnigar tarixi şəxsiyyət kimi. Dastan qəhrəmanı olaraq Zərnigarın sənətkar obrazı. Məsum Əfəndi obrazı. Dastanda Dərbəndin bir mühit olaraq görünüşü. Aşıq Valehin həyatının dastanda ifadəsi. Dastanın toplanması, nəşri, tədqiqi problemi.

**15. Məhəbbət və qəhrəmanlıq hüdudlarında dayanan dastanlar. Məişət dastanları.** Məhəbbət və qəhrəmanlıq hüdudunda dayanan dastanlar və onların xüsusiyyətləri. "Şah İsmayıl" dastanının öyrənilmə vəziyyəti. Folklorşünaslıqda bu dastanlarla bağlı fiki və mülahizələr. Fikir ayrılıqlarının səbəb və qaynaqları. Şah İsmayıl obrazının kimliyi. Dastanda tarixilik. Struktur problemləri. Variantların müqayisəli təhlili. Türkiyə, Cənubi Azərbaycan variantları. Təbriz, İrəvan, Sadaxlı, H.Əlizadə və s. variantların məzmunu. Obrazların səciyyəsi. Ailə-məişət dastanı "Alı xan və Pəri xanım". Dastanın nəşrləri. Toplanması və tədqiqi tarixi. Poetik strukturu.

**16. Aşıq yaradıcılığı.** Aşıq yaradıcılığı haqqında ümumi məlumat. Ozan, dədə, yanşaq, varsaq, aşıq terminləri və onların səciyyəsi. Etimalogiyası. Ozanlıq və aşıqlıq. Ustad aşıqlar.

İfaçı və yaradıcı aşıqlar. Aşıq şeiri şəkilləri. Xalq şeiri və aşıq şeiri. Onların genetikası. Türk şeir ənənəsində aşıqların rolu. Qurbanui, Abbas Tufarqanlı, Sarı Aşıq, Miskin Abdal, Ləzgi Əhməd, Xəstə Qasım, Aşıq Vaıeh, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Şişqayalı Aydın, Şair Məmmədhüseyn, Hüseyn Şəmkirli, Hüseyn Bozalqanlı, Çoban Əfqan, Şeyda Əziz, Şair Nəbi və s. Yaradıcı aşıq və el şairlərinin xalq poeziyasında oynadığı rol. Aşıq qurultayları. Aşıq yaradıcılığının tədqiq problemləri.

**XV-XVI əsr aşıq yaradıcılığı.** Aşıq adı ilə tanınmadan sonrakı mərhələnin spesifikası. Aşıq yaradıcılığında improvizasiya. Sinkretikliyin aşıq sənətində özünəməxsusluq kimi xarakteristikası. Dünya sinkretik sənəti. Aşıq yaradıcılığında sinkretikliyin spesifikası. XV-XVI əsrin aşıq adı ilə tanınmadan sonra dövrdə mərhələ kimi səciyyələnməsi. Onu şərtləndirən amillər. Qurbaninin yaradıcılığı. Şah İsmayıl, Dirili Qurbani, Miskin Abdal yaxınlığı. Qurbaninin Ş.İ.Xətaiyə həsr etdiyi şeirlər. Qurbani şeirlərinin toplanması, nəşri və tədqiqi problemləri. XVI əsr aşıq yaradıcılığının mövzu dairəsi.

**XVII əsr aşıq yaradıcılığı.** Aşıq yarapdıcılığının inkişafında XVII əsr bir mərhələ kimi. Bu dövr aşıq yaradıcılığının spesifikası. Ustad-şagird ənənəsi. Aşıq şeirinin zənginləşmə faktları. Bu dövrdə ustad kimi yaşamış sənətkarlar. Qaracaoğlan, Qul Mahmud, Dostu Şirvanlı, Dəllək Murad, Abbas Tufarqanlı, Sarı Aşıq, Aşıq Səməd və s. Həyat və yaradıcılıqlarının öyrənilməsi problemi. Toplama məsələləri.

**XVIII əsr aşıq yaradıcılığı.** XVIII əsr aşıq yaradıcılığının spesifikası. Ənənə və özünəməxsusluq. Ustad-şagird ənənsi. Aşıq deyişmələri. Dastan yaradıcılığı. Ustad sənətkarlar. Xəstə Qasım, Ləzgi Əhməd, Abdalgülablı Aşıq Valeh, Ağ Aşıq, Aşıq Qənbər, Qul Allahqulu, Zərnigar xanım, Varxiyanlı Məhəmməd, Aşıq Süleyman və s. kimi sənətkarların yaradıcılıq ənənləri. Bu dövrdə yaranan saz havaları. Dini motivli şeirlərin aşıq deyişmələrində aparıcı yeri. XVIII əsr aşıq yaradıcılığının tədqiq problemləri. Toplama, nəşr məsələləri. Sonrakı mərhələdə bu ənənənin yaşanışı. Aşıq mühitlərinin formalaşması.

**XIX-XX əsr aşıq yaradıcılığı.** XIX əsr aşıq yaradıcılığının inkişafında yeni mərhələ kimi. Bu dövrdə mərhələ olmanı səciyyələndirən xüsusiyyətlər. Aşıq mühitlərinin yaranması. Göyçə, Dərbənd, Borçalı, Təbriz, Qarabağ, Şirvan, Çıldır, Qazax, Tovuz, Gədəbəy və s. aşıq mühitləri. Bu mühitləri formalaşdıran amillər. Onların özünəməxsusluq spesifikası. Bu mühitdə Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər xətti. Aşıq Hüseyn Şəmkirli, Aşıq Alı, Şair Məmmədhüseyn, Aşıq Ələsgər, Aşıq Məhəmməd, Ağdabanlı Qurban, Mola Cümə, Aşıq Mirzə, Aşıq Əsəd və s. (bu sənətkarların bəzilərinin yaradıcılığının bir hissəsi iyirminci əsrə düşür) ustadların aşıq sənətində yeri. Məclis ədəb-ərkanı. XIX-XX əsr aşıq yaradıcılığının toplanması, nəşr və tədqiq problemləri..

**17. Çağdaş mərhələdə folklorşünaslığın tədqiq problemləri.** Müstəqillikdən sonrakı Azərbaycan folklorşünaslığı. Folklorşünaslığın müasir problemləri. Region folklorunun öyrənilmə vəziyyəti. Toplama, nəşr və tədqiq məsələləri. Müqayisəli folklorşünaslığın ümumi məsələləri. Çağdaş folklorşünaslığın görkəmli nümayəndələri.

**Əsas ədəbiyyat:**

Bədii əsərlər

1.Azərbaycan aşıqları və el şairləri. 2 cilddə, 1 c., Tərtib edəni Ə.Axundov, Bakı, Elm, 1983, 374 s.
2. Azərbaycan ədəbiyyatı inciləri. Dastanlar. Tərtib edəni B.Abdullayev, Bakı, Yazıçı, 1987, 571 s.
3. Azərbaycan dastanları. Beş cilddə. Bakı, EA, 1965-1970
4. Azərbaycan mifoloji mətnləri. Bakı, Elm, 1988
5. Azərbaycan nağılları. Üç cilddə. Bakı, AZərb EA., 1941-1949
6. Aşıq şeirindən seçmələr. Toplayıb tərtib edənlər: H.Arif, M.Həkimov. Bakı, Gənclik, 1984, 196 s.
7. Bayatılar. Bakı, 1956
8. Arazam Kürə bəndəm. Bakı, Yazıçı, 1986
9. Kitabi-Dədə Qorqud. Bakı ,Gənclik, 1978, 182 s.
10. Koroğlu. Tərtib edəni M.H.Təhmasib. Bakı, Gənclik, 1975, 364 s.
11. Qurbani. Tərtib edəni Q.Kazımov. Bakı, BDU, 190, 280 s.
12. Mahnılar. Bakı, 1967
13. Molla Nəsrəddin lətifələri. Bakı, EA, 1960, 1965
14. Müdrik sözlər. Bakı, Yazıçı, 1979

8.2. Əlavə ədəbiyyat:

**Elmi əsərlər**

1. Araslı H. Aşıq yaradıcılığı. Bakı, Birləşmiş nəşriyyat, 1960, 136 s.
2. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1992, 477 s.
3. Həkimov M. Azərbaycan aşıq şeir şəkilləri və qaynaqları. Bakı, Maarif, 1999, 376 s.
4. Həkimov M. Aşıq sənətinin poetikası. Bakı, Səda, 2004, 608 s.
5. İbrahimov M. Aşıq poeziyasında realism. Bakı, Elm, 1966, 84 s.
6. Kazımov Q. Qurbani və poetikası. Bakı, ADU, 1996, 198 s.
7. Rüstəmzadə R. El qəhrəmanları xalq ədəbiyyatında. Bakı, Gənclik, 1984, 171 s.
8. Seyidov M.M. Varsaq sözü haqqında / Ədəbiyyat və dil institutunun əsərləri, VII c., Bakı: Elm, 1954, s.175-185
9. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər) Bakı, Elm, 1972, 397 s.
10. Vəkilov Q. XIX əsr aşıq lirikası. Bakı, Maarif, 1993, 144 s.
11. Vəliyev V. Azərbaycan folklore. Bakı, Maarif, 414 s.

***Türk dilində ədəbiyyat***

1. Abdulqadir İ. Tarixdə və bu gün şamanizm. Türkiyə, Ankara, 1954, s. 13-150
2. Bahəddin Ö. İslamiyyətdən öncə türk kultur tarixi. Türkiyə, Ankara, 1962, s. 14-49
3. Bahəddin Ö. Türk mitolojisi. Türkiyə, Ankara, 1971, s. 3-36
4. Dizdaroğlu H. Xalq şeirində türlər. Türk dili, türk xalq ədəbiyyatı özəl sayısı. Aylıq dil və ədəbiyyat dərgisi. Türkiyə, Ankara, 1968, s. 174-186
5. İbrahim Qəfəsoğlu Türk milli kulturu. Türkiyə İstanbul, 1992, s.15-383
6. Köprülüzüaədən seçmələr. Türkiyə, İstanbul, 1972, s. 5-47
7. Köprülüzadə F. Türk ədəbiyyatında ilk mütəsəvvüflər. Türkiyə, İstanbul, 1918, s. 271-275
8.Radlov V.V. Sibiriyadan. II c., Türkiyə, İstanbul, 1956, s.5-17

## ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ, ƏDƏBİ TƏHLİL VƏ TƏNQİD
## *(minimum imtahanı üçün)*
## PROQRAM

1. Ədəbiyyat nəzəriyyəsi ədəbiyyatşünaslığın bir sahəsi kimi. Ədəbiyyat nəzəriyyəsinin ümumi problemləri. Ədəbiyyat nəzəriyyəsinin məqsəd və vəzifələri. Tarixi inkişafı prosesində ədəbiyyatın ümumi nəzəri və estetik nəzəri kateqoriyalarının formalaşması. Ədəbiyyatşünaslıq və onun sahələri: ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqid.

2. Bədii mətn və ədəbi-nəzəri düşüncə. Ədəbiyyatın incəsənət sistemində funksional rolu. Ədəbiyyatın estetik funksiyası. Estetikada sənətlərin təsnifi problemi. Nəzəriyyə və məktəblər.

3. Ədəbiyyatın spesifikası, mahiyyət və məzmunu. Bədii düşüncənin həyatı təqlid anlamı. Ədəbiyyat və gerçəklik, dünya ədəbi-nəzəri fikrində onun bədii-estetik dərki və izahı. Ədəbi-nəzəri fikrin ilkin mərhələsində ədəbiyyatın bədii-estetik mahiyyəti. XX əsr fəlsəfi-estetik fikrində bədii yaradıcılığın məzmunu. Probleminin ümumi səciyyəsi və nəzəri-metodoloji təlimlər. Ədəbiyyatda nəzəriyyə və məktəblər. Ədəbiyyat ictimai-mədəni şüur forması kimi.

4. Bədii ədəbiyyat, onun funksiyası, predmeti, məzmunu və vəzifələri. Ədəbiyyatda insan problemi. Həyatı ədəbi-bədii təsvir predmeti kimi. Xarakter problemi. Tip və tipiklik. Bədii ədəbiyyatda varlığın və insanın dərki.

5. Ədəbiyyatın bədii estetik kateqoriyaları. Məzmun və forma özünəməxsusluqları. Bədii mətndə məzmun və forma vəhdəti. Forma bədii əsərin estetik kateqoriyası kimi. Bədii məzmun və onun ideya-estetik şərhi. Formanın struktur səciyyəsi.

6. Bədii ədəbiyyatda obrazlılıq. Obrazlılığın ümumi mahiyyəti. Obraz, xarakter, tip. Gerçəkliyin inikas forması. Obrazın idraki-tərbiyəvi funksiyası. Bədii ədəbiyyatın, ümumiyyətlə sənətin obrazlı şüur kimi mahiyyəti. Bədii obraz və bədii detal. Duyulan və hiss edilən fikir sistemi.

7. Bədii dil. Dilin təsvir və ifadə imkanlarının genişliyi. Ədəbiyyatın ilk ünsürü. Bədii düşüncənin təqdimatında dilin funksionallığı. Bədii dildə təsvir və ifadə vasitələrinin rolu. Bədii təsvir vasitələri, sintaktik fiqurlar. Poetik fiqurların Şərq və Qərb nəzəriyyələrinə görə adlandırılması. Məcaz və məcazların növləri.

8. Ədəbiyyatda növ və janrlar. Bədii nümunələrin növlərə və janrlara görə təsnifi. Antik ədəbiyyat nəzəriyyəsində növ məsələsi. Lirik, epik və dramatik növ. Lirik təcəssüm, lirik növün xüsusiyyətləri. Epik növ və onun xüsusiyyətləri. Epik təhkiyə. Şifahi və yazılı ədəbiyyatda epik növ. Əfsanə, rəvayət, nağıl, hekayə, povest, roman. Dramatik növ və onun xüsusiyyətləri. Dramaturgiyanın janr tipologiyası. Dram, komediya və faciə dramatik janrlar kimi. Dramatik nitqin başlıca komponentləri. Azərbaycan ədəbi-nəzəri flkrində ədəbi növ və janr məsələsi və onun tədqiq problemləri.

9. Ədəbi əsərin quruluşu. Bədii mətn. Bədii mətnin strukturu problemi. Mətnə yanaşmalar. Ədəbi əsərin əsas komponentləri. Fabula, süjet, kompozisiya və konfliktin əsas prinsipləri, strukturu və funksiyası. Bədii əsərin arxitektonikası. Bədii zaman və məkan. Mətn təhkiyəsinin zaman və məkanda yerləşimi. Bədii mətn texnologiyaları. Təhkiyə haqqında elm (Narratologiya). Azərbaycan ədəbiyyatşünaslığında təhkiyə problemi.

10. Bədii qanunauyğunluq. Ədəbiyyatın tarixi inkişaf qanunauyğunluqları. Ədəbi məktəblər, cərəyanlar, ədəbi axınlar. Ədəbiyyatda üslub məsəsəsi. Ədəbi dünyagörüşün formalaşması. Azərbaycan ədəbi-nəzəri fikrində ədəbi-məktəb problemi. Ədəbi məktəb və onu şərtləndirən amillər.

11. Bədii metod. Ədəbiyyatın yaradıcılıq metodları. Bədii metodun özünəməxsusluq

aspektləri. Yaradıcılıq metodu probleminin ədəbi-nəzəri şərhi. Yaradıcılıq metodu. Çağdaş ədəbi-nəzəri yanaşmalarda metod məsələsi.

Realist bədii metod. Realizmin tipologiyası problemi. Maarifçi realizm, tənqidi realizm və sosialist realizmi və onun özünəməxsusluq mənzərəsi. Azərbaycan ədəbi-nəzəri fikrində realizm məsələsi. Realizm milli ədəbiyyat nəzəriyyəsinin metodoloji problemlərindən biri kimi. Realizm, ədəbiyyatda milli üslubun təşəkkülü və dərki.

12. Ədəbiyyatda romantizm. Romantik üslub və metod anlayışı. Şərq Və Qərb romantizmi. Romantik üslubu səciyyələndirən xüsusiyyətlər. Avropa romantizmi və onun spesifik mənzərəsi. Romantizm və romantika anlayışları və onların şərhi. Romantizm ədəbiyyat tarixində bir cərəyan kimi. Azərbaycan ədəbi-nəzəri fikrində romantik metod və üslub problemi. Azərbaycan romantizminin nəzəri-estetik prinsipləri.

13. Ədəbi üslublar. Üslub anlayışı. Ədəbi üslubun dərki və bədii mühitdə yeri. Üslub bir kateqoriya olaraq ədəbiyyatşünaslıq və linqvistik mövqedən şərhi. Ədəbi-nəzəri fikirdə üslub problemi. Ədəbiyyatda milli və fərdi üslubların təşəkkül problemi.Üslub özünəməxsusluğu.

14. Ədəbi proses. Ədəbi mühit və ədəbi prosesin bədii-estetik dərki. Ədəbiyyatda mənşə və təşəkkül problemi. Milli ədəbiyyatlarda təşəkkül özünəməxsusluğu. Ədəbiyyatın inkişaf qanunauygunluğu. Ədəbi-nəzəri fikirdə mərhələ nalayışı. Varislik, ənənə və novatorluq və onu şərtləndirən xüsusiyyətlər. Ədəbi prosesin dünya, Şərq və türk ədəbiyyatları kontekstində tədqiq problemləri.

15. Poetika. Ədəbi-nəzəri fikirdə poütikanın dərki. Tarixi poetika və onun prinsipləri. Poetikada normativlik. Mətn poetikası və onun ümumi məsələləri. Poetika ədəbiyyatşünaslığın və ədəbiyyat nəzəriyyəsinin bir sahəsi kimi. Janr və üslub poetikası və onun ümumi sistemi.

16. Modernizm. Modernizmin epoxa kimi ümumi məzmunu. XX əsr ədəbiyyatında modernizm. Modernizm və modern cərəyanlar. Postmodernizm hərəkatı və postmodernist ədəbiyyat. Postmodernist ədəbiyyatın xüsusiyyətləri. Mətn poetikası. Postmodernizmdə intertekstuallıq. Dekonstruksiya və onun mahiyyəti. Arxetiplər.

17. Ədəbi tənqidin janrları. Ədəbi təhlilin başlıca prinsip və meyarları. V.Q.Belinskinin ədəbi tənqid haqda görüşləri. M.F.Axundzadə tənqid haqqında. Azərbaycan ədəbi tənqidinin inkişaf mərhələləri. Çağdaş mərhələdə ədəbi tənqid və onun problemləri.

## ƏDƏBİYYAT:


1. Aristotel. Poetika. Ön söz və şərhlərin müəllifi A.Aslanov. Bakı, Şərq-Qərb, 2006.
2. Bualo. Poeziya sənəti. Tərcümə edən və ön söz. Ə.Ağayev. B.: Şərq-Qərb, 2006
3. Mirzə Fətəli Axundov. Əsərləri, 2 cilddə, II cild, Bakı, «Azərnəşr», 1951, səh.152-153
4. Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları, Bakı,“Azərnəşr”, 1925.
5. Məmməd Cəfər Cəfərov. Azərbaycan ədəbiyyatında romantizm. Bakı, 1963
6. Ədəbiyyat nəzəriyyəsi Ş.Mikayılov. Bakı, “Maarif” nəş., 1996.
7. M.Arif. “Müasirlik, novatorluq, kamillik” məqaləsi. “Sənətkar qocalmır” kitabında. Bakı. Yazıçı. 1980.
8. M.Arif. “Cəfər Cabbarlının yaradıcılıq yolu” monoqrafiyası. Seçilmiş əsərləri. 2-ci cild. Bakı. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. 1968.
9. M.Arif. “Səməd Vurğunun dramaturgiyası”. Seçilmiş əsərləri. 2-ci cild. Bakı. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. 1968
10. M.Arif. “Poeziyamız haqqında” məqaləsi. “Sənətkar qocalmır” kitabında. Bakı. Yazıçı. 1980.
11. M.Arif. “Dil və üslub” məqaləsi. Seçilmiş əsərləri. 1-ci cild. Bakı. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. 1967

12. M.Arif. “Azərbaycan sovet şeiri” məqaləsi. Seçilmiş əsərləri. 1-ci cild. Bakı. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. 1967.
13. M.Arif. “Dramaturgiyamıza bir nəzər” məqaləsi. Seçilmiş əsərləri. 1-ci cild. Bakı. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. 1967.
14. M.Arif. “Lirika” məqaləsi. Seçilmiş əsərləri. 1-ci cild. Bakı. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. 1967.
15. M.Arif. “M.F.Axundovun komediyaları” məqaləsi. Seçilmiş əsərləri. 3-cü cild. Bakı. Elm. 1967.
16. Ə.Nəcəfov, Füzuli, Şairin yaradıcılıq psixologiyası, Bakı, 2012.
17. Rəfili Mikayıl “Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı, 1958.
18. Mir Cəlal, Pənah Xəlilov, Ədəbiyyatşünaslığın əsasları, Bakı, 1988.
19. Jirmunski V.M. Teoriya literaturı, Poetika, stilistika, L.Nauka, 1977.
20. Ə.Mirəhmədov. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. “Azərbaycan ensiklopediyası”. Nəşriyyat poliqrafiya birliyi, Bakı, 1998.
21. K.Talıbzadə. Azərbaycan ədəbi tənqidinin tarıxi. B., “Maarif”, 1984.
22. Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı,Yazıçı,1978.
23. Q.Yaşar. Realizm: sənət və həqiqət. Bakı, Elm, 1980.
24. Vəli Osmanlı. Azərbaycan romantizmi. Birinci cild. Bakı, Elm, 2010
25. Ə.Sultanlı. Antik ədəbiyyat tarixi, Bakı, 1958
26. Ədəbiyyatşünaslığın əsasları, M.Paşayev, P.Xəlilov. Bakı, “Maarif” nəş., 2008.
27. İsa Həbibbəyli. Ədəbiyyat nəzəriyyəsi yollarında. Poetika.İzm.jurnalı, 2014, №1
28. İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, “Nurlan”, 2007
29. Tahirə Məmməd. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı. Elm, 1999.
30. D.S.Lixaçev. Tekstoloqiya na materiale russkoy literaturı X-XVll v., L., “Nauka”, 1983.
31. M.Quliyeva. Şərq poetikasının əsas kateqoriyaları, Bakı, “Maarif” nəş., 2010.
32. Q.Quliyev. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. B., ”Bəxtiyar-4” KM-in mətbəəsi, 2012,
33. Əhmədov Bədirxan. XX əsr Azərbaycan ədəbiyyatı tarıxi, Bakı, 2015.
34. Mehdi Məmmədov.Azərbaycan dramaturgiyasının estetik problemləri. Bakı, Azərnəşr, 1968
35. Ş.Salmanov. Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi. Bakı, 1980.
36. Elçin Əfəndiyev.Tənqid və ədəbiyyatımızın problemləri. Bakı,Yazıçı,1981
37. Ədəbiyyatşünaslıq, Ensiklopedik lüğət, Bakı, 1998.
38. Mustafayev Məhəmmədəli. XIX əsr ədəbi irsi ədəbiyyatşünaslıqda. Bakı, ”Mütərcim”, 2010.
39. Ş. Salmanov. Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meyilləri (avtoreferat) Bakı, 1997.
40. Yusifli C. Azərbaycan komediyasının poetikası. 2007.

## QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI
***(minimum imtahanı üçün)***

**P R O Q R A M**

**1.** Azərbaycan ədəbiyyatının qaynaqları: Xalq ədəbiyyatı. Xalq mərasimləri. Epos yaradıcılığı. Etnoqrafik mənbələrə. Əfsanə, nağıl, rəvayət, dastan nəğmə və s. Azərbaycan ərazisində yaradılmış abidələr və qədim türk yazılı abidələri. Daş kitabələr, Qayaüstü abidələr. Mif örnəkləri, mərasimlər

Qədim Azərbaycanda Midiya dövlətinin mədəniyyəti. Heradotun "Tarix" kitabı. Midiya əfsanələri.

"Avesta". Zərdüşt-maq mədəniyyəti. Zərdüştlüyün meydana gəldiyi coğrafi məkan. Zərdüşt şair kimi. "Avesta"da ədəbiyyat məsələləri. "Avesta" səmavi kitab kimi. "Avesta" qədim Azərbaycanın fəlsəfi, ədəbi, dini fikrinin, dili və bədii təfəkkürünün qaynağı kimi. "Avesta"nın quruluşu və hissələri ("Qatlar", "Vəndidad", "Yaştlar", "Yasna", "Kiçik Avesta"). "Avesta"nın ilahi nəğmələrində bədii düşüncələr. Abidənin tədqiqi tarixi. Təhkiyə özünəməxsusluğu. Şeir formulları.

Azərbaycan ədəbiyyatı ümumtürk ədəbiyyatının tərkib hissəsi kimi.

**2.** Orxon-Yenisey kitabələri: "Kül tigin","Bilgə kağan", "Tonyukuk". "Orxon-Yenisey abidələrinin mətn sistemi. Bədiilik fakturası. Dövrü və mühiti əks etdirmə səciyyəsi. Abidədə dastançılıq ənənsinin görünüşü. Mətnin bədii və poetik xüsusiyyətləri

Aqvan hökmdarı Cavanşir haqqında elegiya. Dəvdəyin Cavanşirin ölümünə həsr etdiyi mərsiyyə.

**3.** Yusif Xas Hacib. "Kutadqu bilik". Əsərin quruluşu və məzmunu. Poemada xalq ədəbiyyatı ənənələri. Bədii mətn tipi kimi poetik sistemi. Mətn informasiyası. Janr və məzmun xüsusiyyətləri. Poemanın didaktik səciyyəsi.

**4.** Mahmud Kaşqarlının "Divanu-luğatit-türk" ensiklopediyası qədim türk xalqlarının şeir almanaxı kimi. Divandakı şeirlərin məzmunu, motivləri və poetexnikası. Lüğətin informativ xarakteri və bədii sistemi. Orxon-Yenisey kitabələri, "Kutadqu bilik" və "Divanu luğatit-türk" abidələrinin tədqiqi və nəşri tarixi.

**5.** VII-X əsrlərdə ərəbcə yazmış Azərbaycanlı şairlər. Məvali şairlər: İsmayıl ibn Yəsar, Musa Şəhəvat, Əbulabbas əl-Əma. Məvali şairlərin yaradıcılığını bizə gətirib çatdıran mənbələr. Təzkirələr. Şeirlərin janr və mövzu səciyyəsi. Ərəb dilində yazmaq ənənəsi.

Bərakəveyh Zəncani və Muğləsi Marağayinin poetik irsi. Təzkirələrdə Bərakəveyh Zəncani və Muğləsi Marağayi. Onların şeirlərinin mövzu dairəsi.

Ömər Gəncinin həyatı və şeirləri. Tədqiq problemləri. Dövrü və mühiti. Ərəbdilli ədəbiyyatın tədqiq məsələləri. İslam ədəbiyyatı və islami dəyərlərin bədii ədəbiyyatda ifadəlilik imkanları

**6.** XI-XII əsrlər Azərbaycan ədəbiyyatının yüksəliş dövrü kimi. Şərhçilik və ədəbiyyatşünaslıq elmi. Xətib Təbrizinin həyatı və əsərləri. Yusif Xoylunun tənqidi görüşləri. Təsəvvüf dünyagörüşü və onun ədəbiyyatda inikası. Eynəlquzat Miyanəçinin həyatı və yaradıcılığı. Şihabəddin Sührəvərdinin həyatı və əsərləri. Ədibin işraqiyyə ideyaları və bu ideyaların poeziyasında ifadəsi. Tədqiq və nəşr problemləri.

**7.** XI-XII əsrlər Azərbaycan ədəbiyyatı. Azərbaycan ədəbiyyatının farsdilli mərhələsi. Farsdilli Azərbaycan ədəbiyyatın meydana gəlmə səbəbələri. XI-XII əsrlər Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri. Ömər Gənci, Eynəlqüzzat Miyanəçi, Əbülüla Gəncəvi, Fələki Şirvani, İzzəddin Şirvani, Mücirəddin Beyləqani, Qivami Mütərizi, Şihabəddin Sührəverdi. Şirvanşahlar, Atabəylər, Qəznəvilər saray mühiti.

Q. Təbrizi (1012-1088) və X.Təbrizi (1030-1109). Q.Təbrizinin həyatı, yaradıcılığı. Divanı. Yaradıcılığının tədqiq tarixi. Mövzu dairəsi. Qəsidələri. Mədhiyyə səciyyəsi. Təbriz zəlzələsi ilə bağlı şeirləri. Yaradıcılığında etiraz motivləri.

X.Təbrizi ədəbiyyatşünas alim kimi. X.Təbrizinin mühiti. Bəsrə, Qahirə, Bağdada elm dalınca getməsi. Bağdadda «Nizamiyyə» mədrəsəsində fəaliyyəti. «Həmasə»nin şərhi», «Əbu Təmmam divanının şərhi», Nitqin islahının düzəlişi», «On qəsidənin şərhi», «Banət Suad qəsidəsinin şərhi», «Quranda hallanma», «Nəhvə aid qısa qeydlər», «Əruz və qafiyə elminə dair qısa xülasə» və s. Ədəbi-nəzəri görüşləri. Şeirləri.

M.Gəncəvi. Dövrü və həyatı. Yaradıcılığı. Rübailərinin mövzu dairəsi. Yaradıcılığının tədqiq tarixi. M.Gəncəvi rübai ustadı kimi. Azərbaycan ədəbiyyatında mövqeyi. Həyatı ilə bağlı rəvayət və əhvalatlar.

X.Şirvani (1126-1199). Yaradıcılığı. Şirvanşahlar saray mühiti. X.Şirvaninin həyatı, müasirləri. Bədii irsi. Lirikası. Qəsidə yaradıcılığı. «Mədain xərabələri», «Qəsideyi-şiniyyəsi». Poeması. «Töhfətül-İraqeyn». Yaradıcılığının mövzu dairləsi. Xaqanidə etiraz motivləri. İctimai mühitin ağrıları. Məktubları. Yaradıcılığının tədqiq tarixi.

N.Gəncəvi (1141-1209). Həyatı və yaradıcılığı. **L**irikası (qəzəl, qəsidə və rübailəri), poemaları («Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl», «İsgəndərnamə»). Nizami yaradıcılığının mövzu dairəsi. Dövrün ictimai, siyasi hadisələrinə münasibət. Bəşəri ideallar. Nizami humanizmi. Nizami və dünya ədəbiyyatı. Nizami və şifahi xalq ədəbiyyatı. Nizami irsinin tədqiqi tarixi. Nizamişünaslıq.

## ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, I c. Bakı, 1960.
2. Azərbaycan ədəbiyyatı tarixi, II c. Bakı, 2007.
3. Azadə R. Azərbaycan epik şeirinin inkişaf yolları (XII-XVII əsrlər), Bakı, 1975
4. Araslı H. Şairin həyatı, Bakı, 1967.
5. Araslı N. Nizaminin poetikası, Bakı, 2012
6. Qətran Təbrizi. Divan. Bakı, 1967.
7. Yusifov X. Nizaminin lirikası. Bakı, 1966.
8. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər). Bakı, 1983.
9. Mahmudov M. Xətib Təbrizi. Həyat və yaradıcılığı. Bakı, 1972
10. Məmməd Cəfər. Nizaminin fikir dünyası. Bakı, 1981.
11. Osmanlı V. Qədim türk ədəbiyyatı (VI-X əsrlər), bakı, 2008
12. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, 1993.
13. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı, 1991
14. Sasani Ç. Nizaminin «Leyli və Məcnun» poeması. Bakı, 1985.
15. Səfərov Ə., Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1982.
16. Hüseynov R. Məhsəti necə varsa. Bakı, 1982.
17. Həmidov İ. Azərbaycan ədəbiyyatı klassikləri ərəb ədəbiyyatşünaslığında, Bakı, 2007.
18. Hüseynov X. Mənicə xatın Məhsəti Gəncəvi, Bakı, 2008.
19. Şəfizadə B. Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 2003.


### Rus dilində


1. Алиев Г. Темы и сюжеты Низами в литературах народов Востока. Москва, 1985.
2. Бертельс Е.Э. Низами и Физули. «Избранные труды». Москва, 1962.
3. Гаджиев А.А. Ренессанс в поэзии Низами Гянджеви. Баку, 1980.
4. Крымский А.Е. Низами и его современники. Баку, 1981.
5. Маковельский А.О. Авеста. Баку, 1960.

**ORTA DÖVR (XIII-XVIII əsrlər) AZƏRBAYCAN ƏDƏBİYYATI**
***(minimum imtahani üçün)***
**PROQRAM**

**1. XIII—XIV əsrlərdə** anadilli lirik şeirin inkişafı və nümayəndələri: İzzəddin Həsənoğlu. Şeyx Səfiəddin Ərdəbili və b. Anadilli epik şeirin inkişafı. "Dastani-Əhməd Hərami" və Əlinin "Qisseyi-Yusif" poeması anadilli epik şeirin ilk nümunələri kimi. Bu dövrdə əsərlərini farsca yazan Azərbaycan şair və mütəfəkkirləri: Zülfüqar Şirvani, Nəsirəddin Tusi. Nizami ədəbi məktəbinin nümayəndələri: Marağalı Əvhədi, Arif Ərdəbili, Əssar Təbrizi, əşrəf Marağayi və b. Sufi-irfani dünyagörüşün bədii obrazlarla təqdimatı. Hürufizm və onun ideya-estetik qaynaqları.

***Qazi Bürhanəddin.*** Həyatı və ictimai-siyasi fəaliyyəti. Q.Bürhanəddin ana dilində bizə gəlib çatan ilk mükəmməl divan müəllifi kimi. Şairin qəzəllərinin özünəməxsusluğu. Rübai və tuyuqları.

**2. XV—XVI əsrlər** anadilli şeirin inkişafında yeni mərhələ kimi. Anadoluda Osmanlı sarayında yaşayan və Azərbaycan türkcəsində yazıb-yaradan şairlər: Xəlili, Bəsiri, Süruri, Hamidi, Həbibi və b.

Şah Qasım Ənvar, Bədr Şirvani, Mirzə Cahan şah Həqiqi, Kişvəri, Həqiri Təbrizi və onların yaradıcılığı.

Bağdad ədəbi mühiti: Zehni, Elmi, Ruhi, Şəmsi, Əhdi Bağdadilər və b. Əhdi Bağdadinin təzkirəçilik fəaliyyəti. Təzkirədə adları çəkilən türkdilli şairlər və onların yaradıcılığı.

Heca vəznli şeirin inkişafı və yeni üslubun formalaşması. Qurbani.

***İmadəddin Nəsimi.*** Həyat və yaradıcılığı. Nəsimi qəzəllərində fədakar məhəbbət motivlərinin tərənnümü. Mənəvi saflıq, insansevərlik, əxlaqi gözəllik kimi məsələlərin Nəsimi yaradıcılığında bədii əksi. Şeirlərində kamil insan ideyası. Nəsimi yaradıcılığında hürufilik ideyalarının təbliği.

***Şah İsmayıl Xətayi.*** Həyat və yaradıcılığı. Əsərlərində səfəvilik təriqətinin bədii təcəssümü və təbliği. Qəzəllərində saf və fədakar məhəbbətin tərənnümü. Heca vəznli şeirləri: gəraylı, varsağı və bayatıları. "Dəhnamə" poeması. Poemanın mövzusu, ideyası. Əsas obrazlarının səciyyəsi. Bədii xüsusiyyətləri.

***Məhəmməd Füzuli.*** Həyat və yaradıcılığı. Bağdad ədəbi mühitinin Füzuli ədəbi məktəbinin formalaşmasında rolu. Füzulinin lirikası. Füzuli lirik-aşiqanə qəzəl ustadı kimi. Qəzəlləri anadilli lirikamızın zirvəsi kimi. Füzuli qəzəllərində məhəbbət motivlərinin əksi. İctimai-siyasi motivli şeirləri. Şairin qəsidələri onun həyatı, mühiti və bioqrafiyasına aid faktların qaynağı kimi. Qəsidələrinin ədəbi-bədii xüsusiyyətləri. M.Füzulinin poemaları. "Leyli və Məcnun" poeması. Mövzusu, ideyası. Leyli, Məcnun, Leylinin atası, anası, Məcnunun atası, Zeyd, Novfəl, İbn Səlam və digər obrazların təhlili. Poemanın bədii xüsusiyyətləri. "Bəng və Badə" poeması: mövzusu, süjeti və ideyası. Əsas obrazlar və onların bədii təcəssümü. Füzulinin bədii nəsri. Tərcümələri. "Hədiqətüs-süəda" ("Xoşbəxtlər bağçası") məqtəli və onun ədəbi-bədii özəllikləri. Məktubları.

Füzuli yaradıcılığının sonrakı ədəbiyyata təsiri.

**3. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı**

XVII-XVIII əsrlərdə şifahi və yazılı ədəbiyyatın inkişafı. Fədai və Əmaninin ədəbi irsi.

Poeziyada realist üsluba meyilin güclənməsi.

Füzuli ədəbi məktəbinin nümayəndələri: Məsihi, Saib Təbrizi, Qövsi Təbrizi və b. Füzuli qəzəllərinə nəzirə və təxmislərin yazılması. Qövsinin Füzuli qəzəllərinə yazdığı nəzirələrdə ayrı-ayrı Füzuli misralarını olduğu kimi işlətməsi.

Sadiq bəy Sadiqi. Yaradıcılığı. "Məcməül-xəvas" təzkirəsi.

Hamidin "Seyfəlmülk" poeması.

***Molla Pənah Vaqif.*** Həyat və yaradıcılığı. Vaqif yaradıcılığı ilə anadilli şeirin, heca vəzninin, qoşma janrının yeni bir mərhələyə qədəm qoyması. Vaqifin nikbin poeziyası.

Qoşmaları. Qoşmalarında lirik qəhrəmanın hiss və həyəcanlarının bədii əksi. Vaqiflə Vidadinin deyişməsi iki zidd dünyagörüşün qarşılaşması kimi. Qəzəlləri. "Bax" rədifli qəzəli. Müxəmməsləri. "Görmədim" müxəmməsi. Son şeirlərində dövrdən narazılığın bədii əksi. Vaqif şeirində realizm.

***Molla Vəli Vidadinin*** həyatı və yaradıcılığı. Vidadi yaradıcılığında klassik və xalq şeir üslubunun yanaşı-paralel şəkildə özünü göstərməsi: həm əruzda qəzəl, müxəmməs və həm də heca vəznində qoşma, gəraylı, bayatı və s. şeir şəkillərini işlətməsi. Vidadinin klassik ədəbi ənənələrdən qidalanan, sufi-irfani dünyagörüşün təsiri altında qəriblik, kimsəsizlik, fəqirlik və s. təbliğ edən bədbin ruhlu şeirləri. Vidadi pessimizmi XVIII əsr Azərbaycanın ictimai-siyasi durumu, xanlıqlar dövründə xalqın maddi vəziyyətinin ağırlığı, dərəbəylik, xarici basqın və daxili çəkişmələrdən qaynaqlanan ruh düşkünlüyünün bədii ifadəsi kimi.

***Məhcur Şirvani*** lirik və epik əsələr müəllifi kimi. M.Şirvaninin yeni dövrdə Nizami ənənələrini davam etdirməsi. "Qisseyi-Şirzad" poeması və onun sosial-ictimai qayəsi.

***Məhəmmədin "Şəhriyar" dastanı*** orta yüzilliklər nəsrindən XIX əsr bədii nəsrinə keçid mərhələsi kimi. Əsərdə nəsrlə nəzmin növbələşməsi, klassik səc` qaydalarına əməl olunmaması. Dastanda qəzəl, müxəmməs kimi klassik divan şeir şəkilləri, eləcə də qoşma və gəraylı kimi aşıq şeir örnəklərinin yer alması. Əsərdə saray həyatı və sadə xalq kütlələrinin yaşayış tərzi və ailə-məişət qaydalarının bədii obrazlarla təsviri.

## ƏDƏBİYYAT:

***Elmi ədəbiyyat:***


1. Araslı H. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1956.
2. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı,1958.
3. Araslı H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, 1998.
4. Araslı N. A.Ərdəbili və onun "Fərhadnamə" poeması. Bakı, 1979.
5. Azadə R. Azərbaycan epik şeirinin inkişaf yolları. Bakı,1975.
6. Azadə R. Nizami Gəncəvi (Həyatı və sənəti). Bakı, 1979.
7. Azadə R. Mütəfəkkir Mövlana Füzuli. Bakı, 1996.
8. Azadə R. Seçilmiş əsərləri. İki cilddə, Bakı, 2014.
9. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, III c. Bakı, 2009.
10. Azəroğlu B. Saib Təbrizinin sənət dünyası. Bakı, 1981.
11. Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı, Elm və təhsil, 2014.
12. Cəfər M. Füzuli düşünür. Bakı,1958.
13. Əliyev S. Füzulinin poetikası. Bakı, 1986.
14. Əliyev S. Füzuli. Bakı,1996.
15. Feyzullayeva V. Füzulinin qəsidələri. Bakı, 1985.
16. Xəliloğlu S.Ə. Füzuli qəzəlləri şərhi. Dörd cilddə, Bakı, 2004.
17. Kərimov P. XVII əsr anadilli Azərbaycan lirikası. Bakı, 2011.
18. Köçərli F. Azərbaycan ədəbiyyatı. I c. Bakı, 2004.
19. Qasımzadə F. Qəm karvanı, yaxud zülmətdə nur. Bakı,1968.
20. Quluzadə M. Füzulinin lirikası. Bakı,1965.
21. Quluzadə M. Böyük ideallar şairi. Bakı,1973.
22. Məmmədov Ə. Xətayi. Bakı, 1963.
23. Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı, 2005.
24. Mirzəyev A. Azərbaycan bədii tərcümə tarixi və Füzuli. Bakı, 2009.
25. Seyidov M. Qövsi Təbrizi. Bakı,1966.
26. Səfərli Ə. Məsihi. Bakı, 1992.
27. Səfərli Ə. Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, 2008.
28. Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı,1987.

***Bədii ədəbiyyat:***


1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə. Bakı, 2005.
2. Dastani-Əhməd Hərami. (Tərtib edəni: Ə.Səfərli), Bakı, 2004.
3. Əmani M. Əsərləri. (Tərtib edəni: Ə.Səfərli), Bakı, 2005.
4. Əssar Təbrizi. Mehr və Müştəri. (Tərcümə edəni: M.Sultanov). Bakı, 2006.
5. Əvhədi M. Cami-Cəm. (Tərcümə edəni: Q.Beqdeli, X.Yusifli). Bakı, 2004.
6. Ərdəbili A. Fərhadnamə. (Tərcümə edəni: X.Yusifli). Bakı, 2007.
7. Fədai. Bəxtiyarnamə. (Tərtib edəni: Q.Məmmədli). Bakı, 1957.
8. Füzuli. Əsərləri. 6 cilddə. (Tərtib edəni: H.Araslı). Bakı, 1997-2005.
9. Həbibi. Şeirlər. (Tərtib edəni: Ə.Məmmədov). Bakı, 2006.
10. Həqiqi C. Seçilmiş əsərləri. (Tərtib edənlər: Ə.Rəhimov, L.Hüseynzadə). Bakı, 2006.
11. Hikmət xəzinəsi. (Tərtib edəni: Ə.Səfərli, X.Yusifli). Bakı, 1992.
12. Xətayi. Əsərləri. (Tərtib edənlər: Ə.Səfərli, X.Yusifli). Bakı, 2005.
13. Kişvəri. Əsərləri. (Tərtib edəni: C.Qəhrəmanov). Bakı, 2004.
14. Qazi Bürhanəddin. Divan. (Tərtib edəni: Ə.Səfərli). Bakı, 2005.
15. Qövsi Təbrizi. Seçilmiş əsərləri. (Tərtib edəni: P.Kərimov). Bakı, 2005.
16. Qul Əli. Qisseyi-Yusif. (Tərtib edənlər: E.Əlibəyzadə, Ə.Hüseyni). Bakı, 2005.
17. Məhəmməd. Şəhriyar. (Tərtib edəni: Ə.Səfərli). Bakı, 2006.
18. Məhcur Şirvani. Qisseyi-Şirzad. Hamid. Seyfəlmülük. (Tərt.: Ə.Səfərli). Bakı,1985.
19. Məsihi. Vərqa və Gülşa. (Tərtib edəni: Ə.Səfərli). Bakı, 2005.
20. Məsihi. Divan. (Tərtib edəni: Ə.Səfərli). Bakı, 2012.
21. Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. (Tərtib edəni: H.Araslı). Bakı, 2004.
22. Saib Təbrizi. Seçilmiş əsərləri. (Tərtib və tərcümə edəni: B.Azəroğlu). Bakı, 2004.
23. Vaqif M.P. Əsərləri. (Tərtib edəni: H.Araslı). Bakı, 2004.
24. Vidadi M.V. Əsərləri. (Tərtib edəni: H.Araslı). Bakı, 2004.

## YENİ DÖVR (1900-1920-Cİ İLLƏR) AZƏRBAYCAN ƏDƏBİYYATI
### *(minimum imtahanı üçün)*
### PROQRAM

**1.** XIX əsrin sonu və XX əsrin əvvəllərində ədəbi-mədəni və ictimai-siyasi durum. Ədəbi-mədəni mühitdə yeniləşmə meylləri. İctimai-siyasi gərginliyin ədəbi-mədəni mühitə təsiri. Yeni tipli ədəbiyyat yaratmaq uğrunda mücadilə. Əlifba və məktəb məsələləri. Milli oyanışın və milli mücadilənin məqsəd və məramı.

Milli mətbuat yaratmaq uğrunda mücadilə. "Əkinçi»dən «Molla Nəsrəddın»ə gələn yolun ümumi məram və məqsədi. A.Bakıxanovdan, İ.Qutqaşınlıdan, M.Ş.Vazehdən, M.F.Axundovdan başlayan yeniləşmənin XIX əsrin sonu və XX əsrin əvvəlindəki mənzərəsi. Elm, maarif, mədəniyyət və mətbuatm canlanması. Uşaq ədəbiyyatının ümumi problemləri. Ədəbiyyatın inkişaf tendensiyası.

1905-1907-ci illər inqilabının ədəbi-mədəni mühitə təsiri. Milli özünüdərk və milli oyanış. Elm, təhsil, qadın azadlığı, yeni tipli məktəb yaratmaq üçün ədəbi-mədəni hərəkatın yeni sferaya daxil olması. Milyonçuların maarif, mədəniyyət və mətbuatın inkişafına həssas münasibəti. Qori Müəllimlər Seminariyası məzunlarının maarif, mədəniyyət və ədəbiyyatın, mətbuatın inkişafında rolu (F.Köçərli, N.Nərimanov, C.Məmmədquluzadə, Ü.Hacıbəyli və b.).

**2.** Yeni tipli məktəblərin yaranması. H.Zərdabinin, M.Şahtaxtlının, Ü.Hacıbəyovun, S.Axundovun, R.Əfəndiyevin, A.Şaiqin, A.Səhhətin bu sahədəki fəaliyyəti. Yeni proqram və dərsliklərdə ədəbiyyat. A.Şaiqin dərslikləri. Tiflisdə «Qeyrət» mətbəəsinin fəaliyyəti. «Şərqi-Rus» və «Molla Nəsrəddin» jurnalının nəşri. «Molla Nəsrəddin» Azərbaycan satirik mətbuatının zirvəsi kimi. Jurnalın yaranması, ideya-bədii istiqaməti, naşiri və müəllifləri. Realist satirik ədəbiyyatın inkişafında «Molla Nəsrəddin» jurnalının rolu.

«Molla Nəsrəddin»in təsiri ilə nəşr olunan satirik jurnallar: «Bəhlul», «Zənbur», «Arı», «Kəlniyyət», «Babayi-Əmir» və s. jurnal və qəzetlərin naşirləri və ideya-ədəbi istiqaməti. «Həyat» qəzetinin və «Füyuzat» jurnalının ədəbi-ictimai mühitdə rolu. «Yeni füyuzat», «Şəlalə», «Dirilik», «Açıq söz» mətbuat orqanları «Füyuzat» jurnalının davamçıları kimi. Ədəbiyyatın inkişafında demokratik mətbuatın rolu. «İqbal», «İrşad», «Kaspi», «Tərəqqi», «Tazə həyat», «Dəbistan», «Məktəb» qəzet və jurnallarının ədəbi mövqeyi. "Məktəb", Rəhbər", Dəbistan" və s tipli mətbuat orqanlarının fəaliyyətində ədəbiyyat məsələləri

**3.** Azərbaycan maarifçiliyinin yeni mərhələsi. Maarifçi ədəbiyyatın əsas xüsusiyyətləri, mövzu və problemləri. Maarifçi yazıçılar: realist və romantik maarifçilər. A.Şaiq, S.S.Axundov, A.Səhhət, R.Əfəndiyev, M.Hadi, S.M.Qənizadə və s. Ədəbiyyatın əsas inkişaf istiqamətləri. Ədəbi cərəyanlar və ədəbi metodlar.

**4.** Realizm yaradıcılıq metodunun yeni inkişaf mərhələsi. XX əsr Azərbaycan realizminin əsas xüsusiyyətləri. Siyasi-sosial və tarixi olaylarla bağlı ədəbiyyatın yeni keyfiyyətlər qazanması. C.Məmmədquluzadə yeni tipli realist satirik ədəbi məktəbin banisi kimi. C.Məmmədquluzadə və yeni realist satirik nəsr. C.Məmmədquluzadə və yeni tipli dramaturgiya. «Ölülər», «Dəli yığıncağı», «Anamın kitabı» pyeslərinin dramaturgiyamızda yeri. C.Məmmədquluzadə və bədii publisistika nıəsələləri.

M.Ə.Sabir milli poeziyamızda yeni hadisə kimi. «Molla Nəsrəddin» və Sabir münasibətləri ətrafındakı elmi nıübahisələr. Sabir şeirinin özəllikləri və problemləri. Sabir irsinin nəşri və tədqiqi tarixi. Sabir şeir məktəbinin davamçıları.

Ə.Haqverdiyevin yaradıcılıq yolu. Ə.Haqverdiyev «Molla Nəsrəddin»çi realist satirik nəsrin görkəmli nümayəndəsi kimi. Ə.Haqverdiyevin dramaturgiyası. «Bəxtsiz cavan» faciəsində ictimai gerilik və gəncliyin taleyi məsələsi.

N.Nərimanov nıaarifçi-realist ədəbiyyatın görkəmli nünıayəndəsidir. N.Nərimanovun «Bahadır və Sona» əsərinin janrı, mövzusu. Din, Vətən və məhəbbət problemlərinə baxış. «Nadir şah» əsəri tarixi faciə kimi və onun əsas xüsusiyyətləri.

**5.** Güney Azərbaycanda ədəbi durum. M.Ə.Möcüz M.Ə.Sabirin satirik şeir məktəbinin davamçısı kimi. XX əsr Azərbaycan ədəbiyyatında əsas janrlar və üslublar: Şeir, bədii nəsr, dramaturgiya.

**6.** Ədəbi mühit və ədəbi tənqid. Realist və romantik tənqid. Azərbaycan ədəbiyyatında romantizm. Romantik ənənələr və realizm yaradıcılıq metodu. Ə.Hüseynzadə və Azərbaycan romantizminin yaranması və inkişaf məsələləri. Azərbaycan romantizminin özünəməxsusluğu. Ə.Ağaoğlunun ədəbi-tənqidi görüşləri. «Difai» təşkilatının yaranması.

**7.** Romantizmin ədəbi-estetik istiqamətlərinin formalaşmasında «Füyuzat» jurnalının rolu. «Füyuzat» jurnalı və Azərbaycan romantikləri. Romantik ədəbiyyat və dünya ədəbi təcrübəsi. H.Cavidin yaradıcılığında tarix, tarixilik və müasirlik. H.Cavidin lirikası. Şairin üslub və dünyagörüşü. Şairin əsərlərində insan konsepsiyası. Əsərlərində bəşəri ideyaların təcəssümü. Cavidin «Şeyx Sənan» və «İblis» faciəsində məhəbbət və insan, bəşər və hərb problemi. H.Cavid Azərbaycan romantizminin böyük nümayəndəsi kimi.

M.Hadi romantizminin özünəməxsusluğu. Hadinin lirikası. «Əlvahi- intibah, yaxud insanların tarixi faciəsi» poeması. Hadi yaradıcılığında Şərq və Qərb, müharibə və barış məsələsi. Hadinin şeirlərində insan və zaman. M.Hadi istiqlal şairi kimi.

A.Şaiqin yaradıcılığı. A.Şaiq romantik sənətkardır. Şaiq yaradıcılığında realist ünsürlər. Şaiq milli uşaq poeziyasının yaradıcılarından biri, uşaq-gənclər teatrının yaradıcısı kimi. A.Şaiqin romantik poeziyası. «Köç» və «Məktub yetişmədi» hekayələri. Uşaq poeziyası. Şeirlərində maarifçilik ideyaları

A.Səhhətin yaradıcılığı. Ədibin şeirlərinin ideya və mövzu xətləri. Milli özünüdərkin şairin yaradıcılığında görünüşü. Maarifçilik ideyaları. Məktəb və maarif məsələləri. A.Səhhət və Azərbaycan romantikləri. A.Səhhət lirik şair kimi. Şairin tərcüməçilik fəaliyyəti.

Milli uşaq ədəbiyyatının yaranması. Uşaq-gənclər mətbuatının fəaliyyəti. Yeni tipli dərsliklər və yeni uşaq ədəbiyyatının inkişafı məsələləri.

**8.** Yeni dövr ədəbiyyatında təzkirələr. F.Köçərli ilk Azərbaycan ədəbiyyatı tarixçisi kimi. Ədibin ədəbiyyatşünaslıq fəaliyyəti. Ədəbiyyatın dövrləşməsi və tarixilik kontekstdə sistemləşdirilməsi ilə bağlı yanaşmaları. Abdulla Sur və Azərbaycan ədəbiyyatının bəzi məsələləri. A.Şaiq və Y.V.Çəmənzəminli ədəbiyyat tarixinin və xalq ədəbiyyatının araşdırıcıları kimi. S.Hüseyn və Azərbaycanda ədəbi tənqid. S.Hüseynin yaradıcılığı.

Y.V.Çəmənzəminlinin yaradıcılığı. Yusif Vəzir hekayə ustası kimi. Y.V.Çəmənzəminlinin romanları. «Studentlər» və «İki od arasında» yeni roman nümunəsi kimi. Y.Çəmənzəminli yaradıcılığının tədqiqi problemləri.

**9.** Azərbaycan Xalq Cümhuriyyəti ictimai-siyasi, ədəbi-mədəni mərhələ kimi. Dövrün ümumi xülasəsi. Milli ədəbiyyat mücadiləsinin yeni mərhələsi. Yeni ideyalar, yeni mövzular və janrlar. AXC dönəmi ədəbiyyatının əsas inkişaf istiqamətləri. Poeziya və publisistika AXC dönəmində əsas janrlar kimi. Ü.Hacıbəyli istiqlalçı publisistikanın yaradıcılarından biri kimi. M.Hadi, A.Şaiq, C.Cabbarlı və Ə.Cavad istiqlalçı şairlərdir. Gənc istiqlalçı şairlərin ədəbiyyata gəlişi.

Ədəbiyyatda milli birlik, azərbaycançılıq, türkçülük və turançılıq ideyalarının aparıcı xarakteri. Ədəbi-mədəni mühitin yeni ideyalara köklənməsi. İstiqlal mövzusunun poeziyada, nəsrdə, dramaturgiyada funksional mənzərəsi. Ədəbi-nəzəri fikrin dövrə, bədii mühitə yanaşmaları. S.Hüseynin istiqlalçı hekayələri. C.Cabbarlının Türkiyə və türkçülük mövzularında pyesləri. Ədəbi-mədəni mühitin milli ruha köklənməsi. Elmi-nəzəri fikrin mühiti qiymətləndirməsi.

## ƏDƏBIYYATIN SİYAHISI

1. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. I, II cildlər. Bakı, Elm, 1978, 1979.
2. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. II cild, Bakı, Azərb. EA nəşriyyatı, 1960.
3. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. IV cild. Bakı, Elm, 2011.

4. Feyzulla Qasımzadə. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Maarif nəşriyyatı, 1974.
5. Cəfər Cəfərov. Azərbaycan teatrı, Bakı, Azərnəşr, 1974.
6. Əli Sultanlı. Azərbaycan dramaturgiyasının inkişaf tarixindən, Bakı, Azərnəşr, 1964.
7. Kamran Məmmədov. XIX əsr Azərbaycan şeirində satira. Bakı, Elm, 1975.
8. Həmid Məmmədzadə. M.F.Axundov və Şərq. Bakı, Elm, 1971.
9. Şixəli Qurbanov. XIX əsr Azərbaycan-rus ədəbi əlaqələri. Əsərləri. 3 cilddə. II cild. Bakı, 1970
10. M.Yaşar Qarayev. Faciə və qəhrəman. Bakı, Elm, 1965.
11. Yaşar Qarayev. Realizm: sənət və həqiqət. Bakı, Elm, 1980.
12. Yaşar Qarayev. Tarix: Yaxından və uzaqdan. Bakı, «Sabah» nəşriyyatı, 1996.
13. Əflatun Saraclı (Məmmədli). Azərbaycan bədii nəsri (XIX əsrın sonu, XX əsrin əvvəlləri). Bakı, Elm, 1983.
14. Arif Məmmədov. Nəsrin poetikası (XIX əsrin ikinci yarısı). Bakı, Elm, 1990.
15. Kamran Məmmədov. Qasım bəy Zakir Bakı, Elm, 1984.
16. Mustafa Mustafayev. Zakir şerinin sənətkarlığı. Bakı Yazıçı, 1984.
17. Qasım bəy Zakir. Məqalələr məcmuəsi. Bakı, Elm, 1985.
18. Feyzulla Qasımzadə. M.F.Axundov. Həyat və yaradıcılığı. Bakı, 1962.
19. Mikayıl Rəfili. Mirzə Fətəli Axundov. Bakı, Azərıiəşr, 1990.
20. Nadir Məmmədov. M.F.Axundovun realizmi, Bakı, Elm, 1978.
21. Cəfər Cəfərov. M.F.Axundovun dramaturgiyası. Bakı, 1953.
22. Kamran Məmmədov. Nəcəf bəy Vəzirov. Bakı, Elm, 1963.
23. Zaman Əsgərlı. N.Vəzirovun «Müsibəti-Fəxrəddin» faciəsi. Bakı. Elm, 1985.
24. Zaman Əsgərli. Seyid Əzim Şirvani. Bakı, Elm, 2005.
25. Zaman Əsgərli. Mirzə Şəfi Vazeh. Bakı, Nurlan, 2011.
26. Sokrat Musayev. Klassik Azərbaycaıı dramaturgiyasında müsbət qəhrəman problemi. Bakı, Elm, 1978.
27. Xeyrulla Məmmədov. Azərbaycan ədəbi tənqidi. XIX əsr, XX əsrin hüdudlarında. Bakı, 1999.
28. Mirəli Manafi. Mirzə Əbdürrəhim Talıbov. Həyat və yaradıcılığı. Bakı, Elm, 1972.
29. Əflatun Saraclı. Zeynalabdin Marağalı. Bakı, Gənclik, 1996.
30. Hüseyn İsrafilov. Azərbaycan dramaturgiyasınm inkişaf problemləri (XIX əsrin sonu XX əsrin əvvəlləri. Elm, 1988.
31. İslam Ağayev. «Molla Nəsrəddin»in poetıkası. Elm, 1985.
32. Firudin Hüseynov. Adi əhvalatlarında böyük həqiqətlər. Bakı, Gənclik, 1977.
33. Nadir Vəlixanov. S.S.Axundov. Bakı, Elm, 1996.
34. Şamil Vəliyev. «Füyuzat» ədəbi nıəktəbi. Bakı, Elm, 1999.
35. Aybəniz Əliyeva. Azərbaycan romantiklərinin yaradıcılığında türkçülük. Bakı, 2002
36. Əhmədov Bədirxan. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. I cild. Bakı, 2010.
37. Alxan Bayramoğlu. Şamaxıda maarif və maarifçilik (XIX əsrin ortalarından mart 1918-ci ilə qədərki ədəbi mühit). Bakı, 1997.
38. Alxan Bayramoğlu. Mirzə Ələkbər Sabir. Həyatı və əsərləri. Bakı, 2003.
39. Alxan Bayramoğlu. Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. Bakı, 2003.
40. Alxan Bayramoğlu. Sabir Bakıda. Bakı, 2012.
41. Alxan Bayramoğlu. M.Ə.Sabir haqqında tədqiqlər (toplama və tərtib). Bakı, 2012.
42. Dilarə Məmmədova. Qasım bəy Zakir və Qarabağ ədəbi-ictimai mühiti. Bakı, Avropa, 2014.
43. Raqub Kərimov. Qasım bəy Zakir və müasirləri. Bakı, Elm və Təhsil, 2013.
44. Təranə Abdullayeva. XX əsrin əvvəlləri Azərbaycan ədəbi fikrində qərbçilik meyilləri. Bakı, Avropa, 2014.

45. Güldəniz Qocayeva. Nagah xəyalıma cəhənnəm düşdü (Ə.Haqverdiyevin bədii nəsri). Bakı, Şərq-Qərb, 2000.
46. Səadət Vahabova. Cəlil Məmmədquluzadə nəsrinin poetikası. Bakı, Elm və Təhsil, 2014.

# XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI
## *(mınımum ımtahanı üçün)*
## PROQRAM

**1.** 20-ci illərdə ədəbi-bədii fikrin ideya-bədii istiqamətləri. Azərbaycan Demokratik Cümhuriyyətinin süqutu ilə bağlı milli ruhun ədəbi fikirdə tənəzzülü. A.Şaiq, Ə.Müznib, Ə.Cavad, C.Cabbarlı, S.Mənsur şeirlərində milli ruhun təzahürü. Türkiyədə istiqlal poeziyasının yaranması. Qırmızı imperiya əleyhinə yazılan şeirlər. Güntəkinin (Ə.Abid)istiqlal şeirləri.

Proletar diktaturası cəmiyyətində ədəbiyyatın vəzifələrinin yenidən müəyyən edilməsi. Müxtəlif ədəbi cərəyan və cəmiyyətlər. "Yaşıl qələmlər" və "Qızıl qələmlər". Ədəbiyyatda proletkultçuluq və proletar ədəbiyyatının yaranması. Sovet hakimiyyəti dövründə inqilabi ədəbiyyatın başlıca xüsusiyyətləri. Bədii ədəbiyyatın inkişafına partiya nəzarəti. Cığırdaş yazıçılar.

Yeni teatrın yaranması: "Azad tənqid-təbliğ teatrı", S.S.Axundovun "Çərxi-fələk", "Qaranlıqdan işığa", Ə.Haqverdiyevin "Vaveyla", S.Rüstəmin "Çimnaz xanım yuxudadır" pyesləri. Dramaturgiya: "Anamın kitabı", "Dəli yığıncağı" (C.Məmmədquluzadə), "1905-ci ildə", "Almaz", "Oqtay Eloğlu", "Aydın", "Od gəlini" (C.Cabbarlı), "Knyaz" (H.Cavid). C.Cabbarlı dramaturgiyasında şəxsiyyət azadlığı.

**2.** Azərbaycan Proletar Yazıçıları Cəmiyyətinin təşkili. Proletar poeziyasının yaranması və onun nümayəndələri. S.Rüstəmin "Ələmdən nəşəyə", N.Hikmətin "Günəşi içənlərin türküsü" və s. S.Vurğunun poetik axtarışları. S.Mənsur, M.S.Ordubadi, Ə.Nəzmi, Ə.Razi, Ə.Vahid və başqalarının satirik şeirləri.

Nəsrin təşəkkülündə müxtəlif ideya-estetik prinsiplərin qovuşuğu, köhnə və yeni yazıçılar. Satirik publisistika: "Molla Nəsrəddin" jurnalı və onun bağlanma səbəbləri.

Hekayə janrının inkişafı. C.Məmmədquluzadə, S.Hüseyn, T.Ş.Simurğ, B.Talıblı, Y.V.Çəmənzəminli, Qantəmir, S.Rəhman, M.Cəlalın yaradıcılığı.

**3.** Azərbaycan ədəbiyyatşünaslığının təşəkkül dövrü, F.KÖçərlinin "Azərbaycan ədəbiyyatı" (2 cilddə), İ.Hikmətin "Azərbaycan ədəbiyyatı" (2 cilddə), Y.Vəzirin "Azərbaycan ədəbiyyatına bir nəzər", Ə.Abidin "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" əsərləri.

Azərbaycan mühacirət ədəbiyyatı və onun nümayəndələri, Qırmızı imperiya əleyhinə şeirlər və məqalələr. M.Ə.Rəsulzadə, Gültəkin (Ə.Abid), Əhməd Cəfəroğlu, A.İldırım, M.B.Məmmədzadə, H.Baykara və b.

**4.** 30-cu illər Azərbaycan ədəbiyyatının inkişaf yolları. Yaradıcılıq ittifaq və cəmiyyətlərinin birləşməsi. Ədəbi mübahisə və müzakirələr. Azərbaycan ədəbi mühiti və ədəbi tənqidin yaranması və formalaşması. Azərbaycan və SSRİ yazıçılarının I qurultayı, siyasi repressiyalar. H.Cavid, Ə.Cavad, M.Müşfiq, B.Talıblı, S.Əlihüseyn, Qantəmir, T.Ş.Simurğ, M.K.Ələkbərli, Ə.Abid, B.Çobanzadə, S.Mümtaz və b.

Poeziyanın yeni inkişaf yolları. S.Vurğun, R.Rza, M.Müşfiq, S.Rüstəm, M.Rahim. Poeziyada forma və qəhrəman axtarışları. S.Vurğun və Ə.Cavadın epik poemaları. H.Cavidin demokratik idealları: "Azər" poeması. Sərbəst şeirin ilk addımları.

Nəsrin inkişaf istiqamətləri. Roman və povestlərin yaranması. Tarixi romanlar: "Dumanlı Təbriz", "Gizli Bakı" (M.S.Ordubadi), "Qan içində", "Qızlar bulağı", "Studentlər" (Y.V.Çəmənzəminli). Yaxın keçmişin bədii həqiqətlərinin təsviri. Əbülhəsən, M.Hüseyn, M.Cəlalın romanlarında inqilabi proseslərin realist təsviri. Azərbaycan satirik nəsri. "Dirilən adam" (M,Cəlal), "Kolxozstan" (Qantəmir), "Vəfasız" (S.Rəhman).

Kiçik pyeslərdən dram janrına doğru. Dramatik konflikt, süjet və xarakterlərin inikası: "Peyğəmbər", "İblis" (H.Cavid), "Vaqif" (S.Vurğun). Sosialist quruculuğunun təsviri. C.Cabbarlı romantikası: "Sevil", "Almaz", "Dönüş", "Yaşar", "Həyat" (M.İbrahimov); ilk sovet komediyası "Toy" (S.Rəhman).

**5.** 40-50-ci illərdə Azərbaycan ədəbiyyatı. Müharibə ritmi və ədəbiyyatın qarşısında duran vəzifələr. Müharibə poeziyası, çağırış və səfərbərlik ruhu. Lirik-publisistik üslub. Lirikada qəhrəmanlıq motivləri. S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, M.Dilbazi, Ə.Cəmil, N.Rəfibəyli,

Ə.Əlibəylinin müharibə şeirləri. Vətənpərvərlik, qəhrəmanlıq ədəbiyyatın əsas mövzusu kimi. Müharibənin bədii realist təsviri.

Cəbhə hadisələrinin təsviri: “Dostluq qalası” (Əbülhəsən). Hərbi publisistika: İ.Şıxlı, M.Aranlı, Ə.Əzimzadə, Ə.Sadıq, Ə.Şirvan, Ə.Məmmədxanlı, M.Əkbər, Sovet döyüşçüsünün obrazı. “Oxu bülbülüm, oxu”, “Nişan üzüyü” (M.Hüseyn), “Buz heykəl” (Ə.Məmmədxanlı), “Baldan əvvəl” (M.Cəlal). Yaxın keçmişin bədii təsviri “Tərlan”, “Daşqın”, “Kin” (M.Hüseyn), “Şamo”, “Saçlı” (S.Rəhimov). Əbülhəsən və İ.Əfəndiyevin bədii nəsri. Ədəbiyyatda şəxsiyyət problemi: “Yeraltı çaylar dənizə axır” (M.Hüseyn), “Yanar ürək” (İ.Hüseynov), “Ayrılan yollar” (İ.Şıxlı).

Fəlsəfi lirika: S.Vurğun “Mən tələsmirəm”, “Şair nə tez qocaldın sən”, “Unudulmuş tək məzar” və s. (S.Vurğun). Epik poemada fəlsəfi vüsət. “Zamanın bayraqdarı”, “Zəncinin arzuları” (S.Vurğun), “Lenin”, “Bir gün də insan ömrüdür” (R.Rza).

Ədəbiyyatda insanın mənəvi borcu problemi: “Məhəbbət” (M.İbrahimov), “İntizar” (M.Hüseyn, İ.Əfəndiyev). Tarix müasirliyə xidmət edir. “Fərhad və Şirin” (S.Vurğun), “Nizami”, “Cavanşir” (M.Hüseyn), “Qatır Məmməd” (Z.Xəlil), “Vətən” (A.Şaiq). Dramaturgiyada fəlsəfi pafos. “Qalib gələcəkmi cahanda kamal”, “İnsan” (S.Vurğun). Komediya janrının vəziyyəti: gülüş və cidiyyət. “Aşnalar” (S.Rəhman), “Qaynana” (M.Şamxalov). Dramaturgiyada konfliktsizlik nəzəriyyəsi. “Aydınlıq”, “Nişanlı qız” (S.Rəhman), “Zərif tellər” (S.Axundov).

**6.** 60-70-ci illər ədəbiyyatının inkişaf yolu. Ədəbiyyat yeni ictimai-siyasi hərəkatda. Yeni dövr, yeni tələblər. Ədəbiyyatın keyfiyyətcə dəyişməsi. Yeni poetik düşüncə. B.Vahabzadə, N.Xəzri və H.Arifin poeziya yaradıcılığı. Sərbəst şeir yeni mərhələdə.

Ədəbiyyatda insan həyatı və taleyi məsələsi. Sosialist realizmi metodunun sərhədlərinin genişləndirilməsi. Milli istiqlal ideyalarının rüşeymləri. İkiyə bölünmüş Azərbaycan problemi (“Gülüstan”, B.Vahabzadə). Xəlil Rzanın şeirləri.

**7.** Ədəbiyyatda müasirlik. Yeni üslublar və yollar. Yeni nəsr və yeni nəsil anlayışları. Nəsrdə qəhrəman tipi. Mənəvi-əxlaqi axtarışlar: Yeni nəsrin axtarışları. “Macal”, “Beşmərtəbəli evin altıncı mərtəbəsi”, “Ağ liman” (Anar), “Ondan yaxşı qardaş yox idi”, “Truskovetsə kim gedəcək” (M.İbrahimbəyov), “Bir görüşün tarixçəsi” (Elçin). Nəsrdə lirik psixologizm: “Söyüdlü arx”, “Körpüsalanlar” (İ.Əfəndiyev), “Adamlar və ağaclar” (Ə.Əylisli), “Baladadaşın ilk məhəbbəti” (Elçin), “Evin kişisi” (İ.Məlikzadə). Nəsrdə monumentallıq, milli hadisə və xarakterlərin təsviri. “Dəli Kür” (İ.Şıxlı). İ.Hüseynovun roman və povestləri.

Poeziyanın aparıcı qolları. Sərbəst şeirin inkişafı. R.Rzanın “Rənglər” silsiləsi. Təzadlar poeziyası: F.Qoca, M.Arz, N.Həsənzadə, A.Abdullazadə, C.Novruz, Ə.Salahzadə, F.Sadıq, İ.İsmayılzadə, V.Səmədoğlu. Elmi-texniki tərəqqi və poeziya. Poeziyada insan və şəxsiyyət problemi. Yeni nəslin axtarışları. M.Yaqub, M.İsmayıl, R.Rövşən, N.Kəsəmənli və b.

Poema yaradıcılığı: “Nəsimi” (Qabil), “Muğam”, “Atılmışlar” (B.Vahabzadə), “Nəriman”, “Zümrüd quşu” (N.Həsənzadə).

Cənubi Azərbaycan ədəbiyyatı və cənub mövzusu. M.Şəhriyar, Səhənd, Sönməz, B.Azəroğlu, Ə.Tudə, S.Tahir, M.Gülgün və b.

Dramaturgiyanın estetik idealı: qəhrəman və zaman problemi. Mənəvi əxlaqi münasibətlərin təsviri: “Unuda bilmirəm”, “Məhv olmuş gündəliklər”, “Sən həmişə mənimləsən” (İ.Əfəndiyev), “İkinci səs”, “Yollara iz düşür”, “Yağışdan sonra” (B.Vahabzadə), “Sən yanmasan”, “Əks-səda” (N.Xəzri), “Mezozoy əhvalatı” (M.İbrahimbəyov), “Şəhərin yay günləri” (Anar). İnsanın daxili aləminin açılmasında gülüşün rolu və mövqeyi: “Əliqulu evlənir”, “Yalan” (S.Rəhman), “Yaxşı adam”, “Kəndçi qızı” (M.İbrahimov), “Kişilər”, “Həmyerlilər” (A.Məmmədov), “Əcəb işə düşdük” (Ş.Qurbanov), “Adamın adamı” (Anar), “Mənziliniz mübarək” (S.Dağlı).

**8.** 80-90-cı illər ədəbiyyatının inkişaf yolları. Bədii idrak və inikasında yeniləşmə prosesləri. Müasirlərimizin obrazı. Janr və üslub müxtəlifliyi. Poeziyada ritorika və mücərrədlikdən konkretliyə doğru. Poetik “mən”, lirik qəhrəman, insan və zaman problemləri, fəlsəfi poeziya. B.Vahabzadənin epik və lirik əsərləri. H.Arifin təbiət lirikası. İntellektual

poeziya və onun inkişafı: V.Səmədoğlu, R.Rövşən, V.Cəbrayılzadə, R.Behrudi və b. Poeziyada azadlıq mübarizəsinin təsviri. X.Rzanın istiqlal şeirləei. Poeziyada yeni səs: "Ağ şeirlər".

Dramaturgiyada mənəvi və əxlaqi münasibətlər. Müasirlərimizin təsviri. "Poçt şöbəsində xəyal", "Mənim ərim dəlidir" (Elçin). Tarixə yeni baxış: "Özümüzü kəsən qılınc" (B.Vahabzadə). Komediya janrının inkişaf istiqamətləri. Komik situasiya və xarakterlər: "Bəxt üzüyü" (V.Səmədoğlu), "Evləri köndələn yar" (Anar), "Ananın pasportu" (Ə.Əylisli), "Doğmalara" (R.Əlizadə), "Nömrədə iki nəfər" (K.Aslanov).

Tarixi təfəkkür məcrasında roman janrının inkişafı. "Qarlı aşırım", "Xudafərin" (F.Kərimzadə), "Köç" (M.Süleymanlı), "Qanlı yaddaş", "Sınaq kürəsi" (A.Abdullazadə), "İdeal" (İ.Hüseynov).

Sənətkarın yaradıcılıq aləmi, dünyabaxışı və bədii-estetik idealların tədqiqi. Ədəbi tənqid, ədəbiyyat tarixi və ədəbiyyatşünaslıq məsələləri. M.F.Axundov və F.Köçərli ilə başlanan yolun davamçıları: M.Arif, M.Rəfili, Ə.Sultanlı, M.C.Cəfərov, M.Cəlal, K.Talıbzadə, Ə.Mirəhmədov, K.Məmmədov, M.Məmmədov, Y.Seyidov, P.Xəlilov, C.Cəfərov, M.H.Təhmasib, M.Seyidov, M.Quluzadə, Ə.Ağayev, Q.Xəlilov, B.Nəbiyev, Y.Qarayev, Y.İsmayılov və b.

## ƏDƏBİYYAT SİYAHISI

### *Elmi ədəbiyyat*


1. Azərbaycan Sovet ədəbiyyatı tarixi, 2 cilddə, Bakı, 1967
2. Azərbaycan ədəbiyyatı məsələləri (məqalələr), Bakı, 1964
3. Azərbaycan ədəbiyyat tarixi. VI cilddə. I, II, III, IV cildlər. Bakı, Elm, 2004, 2007, 2009
4. C.Abdullayev. S.Vurğun yaradıcılığının sənətkarlıq xüsusiyyətləri
5. M.Arif. Cəfər Cabbarlı, Bakı, 1954.
6. M.Arif. C.Cabbarlının yaradıcılıq yolu, Bakı, 1956.
7. M.Arif. S.Vurğunun dramaturgiyası, Bakı, 1964.
8. M.C.Cəfərov. Ədəbi düşüncələr, Bakı, 1958.
9. M.C.Cəfərov. Hüseyn Cavid, Bakı, 1960.
10. M.C.Cəfərov. Füzuli düşünür, Bakı, 1959.
11. C.Cəfərov. Cəfər Cabbarlı, Bakı, 1960
12. C.Cəfərov. Seçilmiş əsərləri, 2cilddə, Bakı, 1970
13. K.Talıbzadə. M.Qorki və Azərbaycan ədəbiyyatı, Bakı, 1959.
14. B.Nəbiyev. Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı, Bakı, 1973.
15. B.Nəbiyev. Firudin bəy Köçərli, Bakı, 1963.
16. Y.Qarayev. Faciə və qəhrəman, Bakı, 1965.
17. Y.Qarayev. Meyar şəxsiyyətdir, Bakı, 1988.
18. Y.Qarayev. Tarix yaxından və uzaqdan, Bakı, 1996.
19. İ. Həbibbəyli Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007
20. İ. Həbibbəyli Cəlil Məmmədquluzadə. Mühiti və müasirləri.Bakı, Azərnəşr,1997
21. İ. Həbibbəyli Romantik lirikanın imkanları. Bakı, Yazıçı, 1984
22. Ş.Alışanov Sözün estetik yaddaşı. Bakı, "Elm", 1994
23. Ş. AlışanovƏdəbi-bədii düşüncənin sərhədləri. Bakı, "Sabah", 2010
25. Ş. AlışanovMüasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı, "Elm", 2011
26. A.Səfiyev. Sabit Rəhmanın komediyaları, Bakı, 1978, 1985.
27. A.Səfiyev. Müasir Azərbaycan dramaturgiyası, Bakı, 1999.
28. B.Vahabzadə. Səməd Vurğunun lirikası, Bakı, 1956.
29. Xalq şairi Səməd Vurğun (məqalələr), Bakı, 1956.
30. Q.Xəlilov. Böyük sənət uğrunda, Bakı, 1963.
31. Q.Xəlilov. Sənət və sənətkar, Bakı, 1966.
32. P.Xəlilov. SSRİ xalqları ədəbiyyatı, Bakı, 1966.
33. Y.Seyidov. Q.Qasımzadə. Süleyman Rəhimov, Bakı, 1960.

34. Y.Seyidov. M.Hüseynin yaradıcılıq yolu, Bakı, 1966.
35. Y.Seyidov. İ.Əfəndiyev, Bakı, 1975.
36. Əli Nazim. Seçilmiş əsərləri, Bakı, 1974.
37. Ağayev Ə. Sənətkarlıq məsələləri (məqalələr). Bakı, 1962
38. A.Abdullazadə. Novatorluq və üslub, Bakı, 1976.
39. A.Abdullazadə. Şairlər və yollar, Bakı, 1984.
40. A.Abdullazadə. Şair Cəfər Cabbarlı, Bakı, 1989.
41. A.Abdullazadə. Od nə çəkdi (R.Rza), Bakı, 1990.
42. A.Abdullazadə. Ədəbiyyatda şəxsiyyət konsepsiyası (elmi rəhbər və redaktor A.Abdullazadə), Bakı, 2000
43. H.Babayev. Mayakovski və Azərbaycan, Bakı, 1965.
44. A.Hüseynov. Nəsr və zaman, Bakı, 1975.
45. Ş.Salmanov. Azərbaycan sovet şeirində ənənə və novatorluq problemi, Bakı, 1980.
46. B.Əhmədov. Azərbaycan satirasının inkişaf problemləri, Bakı, 2000.
47. B.Əhmədov. Sabit Rəhmanın satirası, Bakı, 1998.
48. B.Əhmədov. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I, II cild. B., 2011, 2012.
49. M.Hüseyn. Ədəbiyyat və sənət məsələləri, Bakı, 1960.
50. S.Quliyeva. Müşfiq sənətkarlığı, Bakı, 1984.
51. Elçin. Tənqid və ədəbiyyatşünaslıq problemləri, Bakı, 1981.
52. Elçin. Klassiklər və müasirlər, Bakı, 1987.
53. R.Hüseynov. Vaxtdan uca, Bakı, 1998.

## TÜRK XALQLARI ƏDƏBİYYATI

### *(mınımum ımtahanı üçün)*
### PROQRAM

**1. Türk dastan ənənəçiliyi**. Türk xalqlarının ədəbiyyatı və dünya ədəbiyyatı kontekstnıdə yerı. Türk xalqları ədbiyyatının səciyyəvi cəhətləri, şərq və qərb ədəbiyyatları ilə qarşılıqlı əlaqələri, ortaq və fərqli cəhətləri, inkişaf mərhələləri. Sovet dönəmində Türkiyə ədəbiyyatının araşdırılmasına və təbliğinə qarşı yönəldilən süni problemlərin səbəbləri. Türk xalqları ədəbiyyatının dövrləşdirilməsi. Milli ədəbiyyatların fərqli inkişaf meyillərinin nəzərə alınması ilə ümumi meyarlar əsasında dövrləşdirmə: qədim türk ədəbiyyatı, orta əsrlər türk ədəbıyyatı, yeni dövr türk ədəbiyyatı, ən yeni dövr türk ədəbiyyatı. Dövrləşdirmənin türk xalqlarının filoloji fikrində müxtəlifliyi.

**2. Qədim türk xalqları ədəbiyyatı.** Qədim türk xalqları ədəbiyyatı haqqında ümumi məlumat. Bu dövrün ədəbi örnəklərinin sistematik şəkildə araşdırılmaması. Qədim türk ədəbiyyatının şərti şəkildə iki mərhələyə ayrılması: müəllifi naməlum bədii örnəklər və müəllifli örnəklər

**Müəllifi naməlum örnəklər.** Orxon-Yenisey abidələriidəsi ilk türk yazılı abidəsi kimi. Abidənin yazılma səbəbləri və problemləri. Bu ədəbiyyatda ümumi-ictimai mətləblər və fərdi-insani duyğular, hisslər. Mövcud nümunələr əsasnıda qədim türk poetik təfəkkürü haqqında təsəvvürün yaranması. Abidələrdə və M.Kaşğarinin «Divani lüğat-üt-türk» əsərində bədii örnəklər, onların özünəməxsusluqları. Abidənin Azərbaycan ədəbiyyatşünaslığında öyrənilməsi tarixindən. Bu sahədə hansı alımlərin tədqiqatları var.

**Yusif Xas Hacib Balasaqunlu.** Həyat və yaradıcılığı. "Qudatqu bilik"in tərcüməşiləri və «Şahnamə». Əsərin «Şahnamə» bəhrində (mütəqarib bəhri) qələmə alınmasının əsas səbəbi. Əsər türk dövlət quruculuğu və hakimiyyəti idarəçiliyi sahəsində ilk türk dilində yazılmış mənbə kimi. İlk bədii-publisistik və elmi mənbə kimi. Poemanın simvolik obrazlar aləmi və mahiyyəti. «Qudatqu bilik» və sufizm. Azərbaycan ədəbiyyatşünaslığında hansı alımlərin bu sahədə elmi məqalələri var. "Qutatku bilik" Azərbaycan dilinə nə zaman tərcümə olunub.

**Mahmud Kaşğarı. Həyat və yaradıcılığı.** Mahmud Kaşğarının həyat və yaradıcılığı. «Divani lüğət-it türk» əsərində türk dilinın qorunub saxlanması və bədii-elmi sahədə işlədilməsi uğurunda mübarizə.Divanın yazılma səbəbi. Bunun üçün müqəddəs Quranın nazil olduğu dildə – ərəb dilində danışanlara türk dilinin öyrədilməsinə cəhd və belə bir cəhdin ictimai-siyasi və elmi baxımdan əsaslandırılması. «Divan» türk dilinin qanunları, türk tarixi, coğrafiyası və s. haqqında əsər kimi. Türk dünyasının ilk mükəmməl xəritəsi. Qədim türk poeziyasından, folklorundan, o cümlədən atalar sözlərindən verilmiş nümunələr və bunların tarixi-mədəni əhəmiyyəti. Əsrin əvvəllərində azərbaycanlı ziyalıların bu sahədəki fəaliyyətıəri. Azərbaycan ədəbiyyatında M. Kaşqari ilə bağlı son dövrlər görülən işlər haqqında məlumat.

**Əhməd Yəsəvi.** Ə. Yəsəvi ilk sufi təriqət şairi kimi.Ə.Yəsəvinin həyatı ilə bağlı əfsanələr. Bu əfsanələrin yaranmasınm səbəbləri. Ə.Yəsəvi şeyxi, mürşid və ilk yazılı türk təkkə şerinin, yəsəviyyə təriqətinin banisi kimi. Ə.Yəsəvi və sufizm. Ə.Yəsəvi və türk ədəbiyyatı. «Divani-hikmət» əsəri: məzmunu, ideya istiqaməti, hikmətlərinin janrı, vəzni, bölgüsü, dil-üslüb xüsusiyyətləri. Ə.Yəsəvinin sufi görüşləri, şeirlərində eşq-məhəbbət, haqqa qovuşmanın mənəvi təkmilləşmə, kamilləşmə yolu kimi. Gözələ sevgi - Tanrıya sevgi mənasında. Əhməd Yəsəvi yaradıcılığı və Azərbaycan ədəbiyyatı.

**Ə. Yuqnəki.** Ə.Yuqnəkinin həyatı haqqında məlumat. «Heybətül-həqaiq» əsərinin quruluşu, didaktik səciyyəsi . Ə.Yuqnəki və sufizm. Əsərində dilə münasibət və sufi motivlərinin qabarıq ifadəsi. Ə.Yuqnəkinin Y.X.H.Balasaqunlu ənənəsini davam etdirməsi. Ə.Yəsəvinin və Ə.Yuqnəkinin davamçıları. Azərbaycan ədəbiyyatında öyrənilməsi.

**3. Xll-XV əsrlər türk xalqları ədəbiyyatı.** Bu dövrdə divan, təkkə ədəbiyyatının

yaranaraq inkişaf etməsi. Türk xalqları ədəbiyyatında təsəvvüf; özünəməxsusluğu, şeir şəkilləri, təriqətləri və onların əsas nümayəndələri, yəsəviliklə əlaqəsi, lirik-fəlsəfi və əxlaqi-didaktik motivə üstünlük verilməsi. Qul Əlinin «Qisseyi-Yusif», Durbəkin «Yusif və Züleyxa», Lütfinin «Gül və Novruz» poemalarının özünəməxsusluqları. Ətai, Səkkaki, Lütfı va onların yaradıcılıqları haqqında . Lütfinin «Gül və Novruz» poeması. Adları çəkilən sənətkarların əsərlərində insan gözəlliklərinə marağın səbəbləri. Mətləbin, fikrin orijinallığı ilə yanaşı ifadə özünaməxsusluğuna xüsusi diqqat yetirilməsi.

Türkiyə adabiyyatında Ə.Fəqih va onun sufi «Çərxnamə» əsəri. Səyyad Hamzənin «Yusif və Züleyxa» əsəri və türk xalqları ədəbiyyatında oxşar mövzulu bədii nümunələr. Sultan Vələdın həyat və yaradıcılığı, mövləvilik təriqətinin formalaşmasında onun rolu haqqında Aşıq Paşa və onun «Qəribnamə» poeması. Tacəddın İbrahim Əhmədi və «İskəndərnamə» əsəri haqqında məlumat. Nizaminin eyni adlı poeması ilə oxşar və fərqli cəhətləri. Şeyxi və onun «Xosrov və Şirin», «Xarnamə» əsərləri. Əhməd Paşanın lirikası. Mehri xatunun poeziyası və həmin dövrdə tərcümə işi. Qütbün N.Gəncəvinin «Xosrov və Şirin» poemasını türk dilinə tərcüməsi. Tərcümənin səciyyəvi cəhətləri. Nizaminin poemasına yaradıcı münasibət. Poemanın tərcümasində yol verilmiş sərbəstliklər. Tərcümənin tarixı əhəmiyyəti.

**Cəlaləddın Rumi.** C.Ruminin həyat və yaradıcılığı. S.Təbrizi və C.Rumi. C.Ruminin sufizmi və mövləvilik təriqətinin müxtəlif səciyyəvi cəhətləri. «Divani-kəbir», «Fihi ma-fıh», «Məktubat», «Məcaləsi-səba». Onların ideya-məzmun xüsusiyyətləri. «Məsnəvi» əsəri. «Məsnəvi»nin ideya və məzmunu, sənətkarlıq məziyyətləri. C Rumi və türk ədəbiyyatında sufizmin inkişafı. C.Rumi və Azərbavcan ədəbiyyatı.

**Yunus Əmrə.** Yunus Əmrənin həyat və yaradıcılığı. Y.Əmrə təkkə-təsəvvüf şairi kimi. Y.Əmrə ilə əlaqədar əfsanə və rəvayətlər. Onun «Risalətün nushiyyə» əsəri, «Divan»ı haqqında məlumat. «Risalətün nusihiyyə» türk xalqları ədəbiyyatında ilk didaktik məsnəvi kimi. Əsərin əsas mövzusu, ideyası, simvolık obrazlar aləmi. Eşq və sevgi haqqında Y.Əmrənin düşüncələri.Onun sufi görüşləri və türk xalqları ədəbiyyatında sufizmin inkişafı. Y.Əmrə poezivasının son dövrlərdə Azərbaycan ədəbiyyatışünaslığında öyrənilməsi.

**Əlişir Nəvainin həyat və yaradıcılığı.** Ə.Nəvainin həyatı, yaradıcılığı və dövlət xadimi kimi fəaliyyəti. H.Bayqara ilə yaxınlığı. Sürgünə göndərilməsinin səbəbləri. Nəvainin yaradıcılığı haqqında ümumi məlumat onun elmi-nəzəri əsərləri. «Nəsaimül-məhəbbət», «Məcalisün- nəfais», «Mühakımətül-lüğateyn», «Lisan üt-teyr», «Məhbubül-qülub» və s. əsərlərı. «Mühakimətül-lüğəteyn» əsəri O.Nəvai yaradıcılığında Y.Balasaqunlunun və M.Kaşğarlının dil uğurunda mübarizə ənənəsinin davamı və inkişafı kimi.

Ə.Nəvai «Çahar divan» adlanan dörd cildlik «Xəzainül-məani» («Mənalar xəzinəsı») divanın müəllifi haqqında . Onun lirik şerlərinin janrları. Lirik şerlərini türk və fars dillərində yazması, türk dilində yazdığı əsərlərində Nəvai, fars dilində yazdığı əsərlərində Fani təxəllüsünü işlətməsi. Lırikasının ideya-məzmun və sənətkarlıq baxımından özünəməxsusluğu.

Ə.Nəvai türk dilində ilk «Xəmsə» müəllifi kimi. Nizami Gəncvi və Ə.Nəvai. . Hər iki «Xəmsə»dəki oxşarlıq, yaxın, müştərək və fərqli cəhətlər. Orta Asiya gerçəkliyinə uyğunlaşdırmaq cəhdi. Ə.Nəvai «Xəmsə» sinə daxil olan poemalar. Poemaların ideya-məzmun və poetik təhlili. Ə.Nəvai yaradıcılığı Azərbaycan ədəbiyyatınşünaslığıda öyrənlməsi.

